Rəsmi dövlət qəzeti

# AZƏRBAYCAN

AZƏRBAYCAN RESPUBLİKASI MİLLİ MƏCLİSİNİN ORQANI

№ 6 (8029) CÜMƏ AXŞAMI, 10 yanvar 2019-cu il | Qəzetin əsası 1918-ci ildə qoyulmuşdur | www.azerbaijan-news.az






# Hücumçu diplomatiyamızın uğurları

Tarixə qovuşmuş 2018-ci il beynəlxalq münasibətlər sistemində gərginliyin artması ilə yadda qaldı. Qlobal və regional güclər arasında artan ixtilaflar davam etdi, müstəqil dövlətlərin suverenliyinə və daxili işlərinə müdaxilə, beynəlxalq hüququn norma və prinsiplərinə ikili yanaşma davam etdi, planetin ayrı-ayrı regionlarında silahlı münaqişələr, etnik qarşıdurmalar, eləcə də birtərəfli iqtisadi sanksiyalar, dözümsüzlük və humanitar böhran daha da kəskinləşdi.

Beynəlxalq aləmdə hökm sürən mürəkkəb şəraitə baxmayaraq, Azərbaycan Respublikası Prezident İlham Əliyevin yürütdüyü məqsədyönlü xarici siyasət sayəsində ayrı-ayrı ölkələrlə ikitərəfli əlaqələrin möhkəmləndirilməsi, beynəlxalq əməkdaşlığın genişləndirilməsi istiqamətində uğurlu addımlar atmış, dövlətin beynəlxalq aləmdə siyasi çəkisinin artmasına və milli maraqların irəli aparılmasına nail olmuşdur. Ötən il dövlət başçısı bir çox ölkələrdə, o cümlədən Türkiyə, Rusiya, Böyük Britaniya, Fransa, Belçika, Xorvatiya, İsveçrə, Belarus, Qazaxıstan, Qırğızıstan, Tacikistan və Türkmənistanda rəsmi və ya işgüzar səfərdə olmuşdur. Bununla yanaşı, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva İtaliya və Fransaya səfər etmişdir. Eyni zamanda Türkiyə, Rusiya, İran, İtaliya, Serbiya, Monqolustan, Benin, Tacikistan, Əfqanıstan, Moldova, Makedoniya və Albaniya prezidentləri, həmçinin Almaniya Kansleri ölkəmizə səfərə gəlmişlər.

Məlum olduğu kimi, Azərbaycan regional əməkdaşlığın dərinləşdirilməsi naminə gerçəkləşdirdiyi təşəbbüslərlə dünya miqyasında böyük nüfuz qazanmışdır. Xüsusilə Xəzərin Azərbaycan sektorunda karbohidrogen ehtiyatlarının istismarı və xarici bazarlara ixracı, beynəlxalq əhəmiyyətli infrastruktur layihələrinin icrası istər bölgə dövlətlərində, istərsə də avropalı tərəfdaşlarda böyük maraq doğurmuşdur. Azərbaycanın təşəbbüsü ilə 2006-cı ildə Bakı-Tbilisi-Ceyhan neft kəmərinin, 2007-ci ildə Bakı-Tbilisi-Ərzurum qaz kəmərinin, 2017-ci ildə Bakı-Tbilisi-Qars dəmir yolunun açılışı regional əməkdaşlığın inkişafına və regionda sabitliyin möhkəmlənməsinə misilsiz töhfələr vermişdir.

Bu baxımdan ötən ilin iyununda Türkiyənin Əskişəhər şəhərində Trans-Anadolu qaz kəmərinin (TANAP) açılışı əlamətdar hadisə kimi tarixə yazılmış və Azərbaycanın yeritdiyi xarici siyasətin növbəti uğuru kimi qeyd edilmişdir. Azərbaycanın siyasi-iqtisadi gücünün və Avropanın enerji təhlükəsizliyinin təmin olunmasında əhəmiyyətli rolunu təsdiqləyən möhtəşəm layihə həm də dövlətimizin beynəlxalq aləmdə nüfuzunun artdığını nümayiş etdirmişdir.

TANAP layihəsi Azərbaycan qazının Avropaya böyük həcmdə nəqli mövzusunda aparılmış müzakirələrin yekunu kimi reallaşdı. Bu qaz kəməri dörd böyük layihədən (“Şahdəniz-2” qaz yatağının istismarı, Cənubi Qafqaz Kəməri, TANAP və TAP) ibarət olan “Cənub qaz dəhlizi”nin mərkəzi tərkib hissəsidir. TANAP-ın işə salınması ilə üç layihə reallaşmışdır. TAP (Trans-Adriatik qaz kəməri) layihəsinin 70 faizindən çoxu isə icra olunmuşdur. Gözlənildiyinə görə, gələn il TAP-da istifadəyə veriləcək və bununla 40 milyard dollarlıq infrastruktur layihəsi - “Cənub qaz dəhlizi” həyata vəsiqə qazanacaq.

*Ardı 2-ci səh.*

## Zərdab rayonunun Zərdab-Qaravəlli avtomobil yolunun tikintisinin davam etdirilməsi ilə bağlı əlavə tədbirlər haqqında

### Azərbaycan Respublikası Prezidentinin SƏRƏNCAMI

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Yeddi min nəfər əhalinin yaşadığı 6 yaşayış məntəqəsini birləşdirən Zərdab-Qaravəlli avtomobil yolunun tikintisinin davam etdirilməsi məqsədilə Azərbaycan Respublikasının 2019-cu il dövlət büdcəsinin dövlət əsaslı vəsait qoyuluşu xərclərinin bölgüsündə avtomobil yollarının tikintisi və yenidən qurulması üçün nəzərdə tutulmuş vəsaitin 3,9 milyon (üç milyon doqquz yüz min) manatı Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinə ayrılsın.
2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində göstərilən məbləğdə maliyyələşməni təmin etsin.
3. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***

*Bakı şəhəri, 9 yanvar 2019-cu il*

## İtaliyada TAP-ı qaz şəbəkəsinə birləşdirəcək kəmərin tikintisinin vaxtı açıqlanıb

2019-cu il yanvarın 12-də İtaliyada Transadriatik qaz kəmərinin (TAP) qəbuledici terminalını “Snam Rete” qaz şəbəkəsinə birləşdirəcək interkonnektor qaz xəttinin tikintisi layihəsinin reallaşdırılması üzrə hazırlıq işlərinə başlanılması gözlənilir.

AZƏRTAC bu barədə İtaliya KİV-inə istinadla xəbər verir.



Azərbaycan təbii qazının Avropaya nəqlini həyata keçirəcək TAP layihəsinin səhmdarlarından biri olan “Snam” şirkəti yanvarın 12-dən başlayaraq bir həftə ərzində tikintiyə hazırlıq işləri ilə məşğul olacaq. Şirkətin məlumatına görə, interkonnektor qaz xəttinin tikintisinə isə cari ilin fevral-mart aylarında start verilməsi nəzərdə tutulur.

“Snam-TAP” layihəsi üzrə 55 kilometrlik interkonnektor qaz xəttinin çəkilməsi nəzərdə tutulur. Qeyd edək ki, italyan şirkəti təbii qaz infrastrukturu üzrə ixtisaslaşıb və 2017-ci il dekabrın 31-dək olan göstəriciyə görə, bazar kapitalının həcmi 13,953 milyard avro təşkil edib. “Snam” əvvəllər İtaliyanın “Eni” energetika nəhənginin törəmə şirkəti olub.

Ümumi dəyəri 4,5 milyard avro olan Transadriatik qaz kəməri “Cənub qaz dəhlizi” layihəsinin tərkib hissəsidir. Bu kəmərlə ilkin mərhələdə ildə 10 milyard kubmetr qazın nəqli nəzərdə tutulur, sonrakı illərdə bu həcm artırıla bilər. Boru xəttinin uzunluğu 878 kilometrdir. TAP-ın 550 kilometrlik hissəsi Yunanıstan, 215 kilometri Albaniya, 105 kilometri Adriatik dənizinin dibi və 8 kilometri İtaliya ərazisindən keçəcək.

## Ermənistan silahlı qüvvələrinin bölmələri atəşkəsi pozmaqda davam edir

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində sutka ərzində atəşkəs rejimini 25 dəfə pozub.

Müdafiə Nazirliyindən AZƏRTAC-a bildiriblər ki, Ermənistanın İcevan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonunun Qızılhacılı kəndində, Berd rayonunun Çinari kəndində yerləşən mövqelərdən Tovuz rayonunun Koxanəbi kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Çiləbürt, Yarımca, Ağdam rayonunun Tağıbəyli, Şıxlar, Yusifcanlı, Mərzili, Füzuli rayonunun Aşağı Veysəlli, Qorqan, Kürdlər kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə məruz qalıb.

## Eviniz mübarək, yolunuz açıq olsun!

Azərbaycan dövlətinin siyasətinin mərkəzində vətəndaşların rifahı və rahatlığı dayanır. Bunu yeni müəssisələrin işə salınması, insanların istifadə etdiyi infrastrukturun təzələnməsi, yolların çəkilməsi, evlərin tikilməsi, digər sosial obyektlərin yaradılması təsdiqləyir.

Yeni il ərəfəsində yekunlaşan layihələr bir daha göstərir ki, vətəndaşların sosial məsələlərinin həllinə yüksək diqqət və qayğı prioritet olaraq qalır.

2018-ci il dekabrın 26-da Prezident İlham Əliyevin və birinci xanım Mehriban Əliyevanın açılışında iştirak etdikləri Bakı şəhəri Dairəvi avtomobil yolunu Şərifzadə küçəsi ilə birləşdirən yol, eləcə də Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksi paytaxt sakinlərinə daha bir Yeni il töhfəsi oldu.

*Ardı 2-ci səh.*

## Qədim və müasir

### Bu, Naxçıvandır - Nəqşi-cahandır...

Azərbaycanın mədəni zənginliyinin dünyada daha geniş şəkildə tanıdılması, bu tarixi mirasın qorunaraq gələcək nəsillərə çatdırılması dövlət başçısı İlham Əliyevin daim diqqət mərkəzindədir.

Azərbaycanın qeyri-maddi mədəni irsinin inkişafına yönəldilmiş çoxsaylı respublika, beynəlxalq folklor müsabiqə və festivallarının, sənətkarlıq yarmarkalarının, diyarşünaslıq mövzusunda “dəyirmi masa”lar, konfranslar, digər tədbirlərin təşkili də bu məqsədə xidmət edir.

*Ardı 5-ci səh.*



## İşinin və sabahının sahibi

### Dövlətin dəstəyi özəl sektoru böyük gücə çevirib

Azərbaycanın yeni müstəqillik tarixində iqtisadi inkişafı xarakterizə edən ən mühüm cəhətlərdən biri ölkəmizdə məhz güclü sahibkarlar sinfinin formalaşmasıdır. Bu gün Azərbaycanda ümumi daxili məhsul istehsalında özəl sektorun xüsusi çəkisi aydın hiss olunur, iqtisadi artımın təminatında sahibkarlar sinfinin mövqeyi davamlı şəkildə güclənir.

### Mövqeyi davamlı şəkildə güclənən sahibkarlar sinfi

Dövlət tərəfindən sahibkarlığın inkişafına yaradılan şərait və müxtəlif formalarda verilən dəstək, eyni zamanda, sözügedən institutun daha sürətli tərəqqisi məqsədilə sistem halında ardıcıllıq prinsipi ilə həyata keçirilən, bir-birini tamamlayan iqtisadi islahatlar sahibkarlıq təsərrüfatlarının ölkə iqtisadiyyatının yüksəlişində mühüm rol oynayan subyektlərdən biri olaraq çıxış etməsinə möhkəm bazis yaradıb.

*Ardı 4-cü səh.*




# Hücumçu diplomatiyamızın uğurları

*Əvvəli 1-ci səh.*

Bununla Azərbaycanın zəngin qaz ehtiyatlarını Türkiyə və Avropa bazarlarına qısa və təhlükəsiz yolla nəql etmək mümkün olacaq. Eyni zamanda Türkiyə və Avropa qaz idxalını şaxələndirmək imkanı əldə edəcək. Prezident İlham Əliyevin vurğuladığı kimi, “Cənub qaz dəhlizi” enerji təhlükəsizliyi layihəsidir. Enerji təhlükəsizliyi isə hər bir ölkənin milli təhlükəsizliyi məsələsidir. “Cənub qaz dəhlizi”nin önəmi məhz bundadır - enerji təhlükəsizliyi və enerji resurslarının şaxələndirilməsi. “Cənub qaz dəhlizi” vasitəsilə Azərbaycan qazı yeni yollarla Türkiyəyə və Avropa bazarlarına çıxarılacaqdır. “Cənub qaz dəhlizi” həm yeni yollar, həm də yeni mənbə layihəsidir. Bu, sözün əsl mənasında enerjinin şaxələndirilməsi məsələsinə xidmət göstərir”.

Keçən ilin başqa bir yaddaqalan hadisəsi Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi oldu. Mühüm hadisə avqustun 12-də Qazaxıstanın Aktau şəhərində baş verdi. Həmin gün Xəzəryanı ölkələrin dövlət başçılarının V zirvə toplantısında Azərbaycan Prezidenti İlham Əliyev, Qazaxıstan Prezidenti Nursultan Nazarbayev, Rusiya Prezidenti Vladimir Putin, İran Prezidenti Həsən Ruhani və Türkmənistan Prezidenti Qurbanqulu Berdiməhəmmədov Xəzər dənizinin hüquqi statusu haqqında konvensiya imzaladılar. Beləliklə, Xəzərlə bağlı uzun illər davam edən danışıqlara yekun vuruldu və sututarın hüquqi statusu müəyyənləşdirildi.

Sututarın beynəlxalq hüquqi statusunu müəyyənləşdirmək məsələsi keçmiş SSRİ dağıldıqdan sonra ortaya çıxmışdı. O vaxta qədər Xəzər hövzəsində beynəlxalq münasibətləri Sovet İttifaqı və İran müəyyənləşdirirdi. SSRİ-nin tarixə qovuşması ilə sututarın ətrafında beş müstəqil dövlət ortaya çıxdı və tamamilə yeni tarixi situasiya yarandı. Xəzərin təkində zəngin karbohidrogen ehtiyatlarının mövcudluğu sahilyanı dövlətlər arasında ziddiyyətləri qızışdırırdı. Xəzər dənizinin hüquqi statusu haqqında konvensiyanın hazırlanması işində sahilyanı dövlətlər beştərəfli formatda razılaşmaya gələ bilmirdi. Elə hallar olurdu ki, tərəflər sənədin imzalanmasına yaxınlaşan vaxt yeni ziddiyyətlər ortaya çıxırdı, çünki hər bir dövlət milli maraqlarını əsas gətirərək Xəzərin hüquqi statusuna fərqli yanaşırdı.

Belə olan təqdirdə ayrı-ayrı Xəzəryanı dövlətlər işi irəli aparmaq üçün təşəbbüslər irəli sürdü. 2003-cü ilin mayın 14-də Astanada Azərbaycan, Rusiya və Qazaxıstan arasında Xəzərin dibinin orta xətt üzrə milli sektorlara bölünməsi və su səthinin ümumi istifadəyə verilməsi haqqında üçtərəfli saziş imzalayıb Xəzərin dibinin bölünməsinə dair yekun razılaşma əldə etdi. Nəhayət, 2017-ci il dekabrın 4-5-də Xəzəryanı dövlətlərin xarici işlər nazirlərinin Moskvada keçirilmiş müşavirəsində konvensiya layihəsini razılaşdırmaq mümkün oldu.

Konvensiyanın imzalanması Xəzərlə əlaqəli bütün problemləri həll etməsə də, onun qüvvəyə minməsi hövzədə sahilyanı dövlətlər arasında münasibətləri yoluna qoydu. Prinsip etibarilə Xəzərin statusu məsələsi daha çox nəzəri xarakter daşısa da, su səthinin və dənizin dibinin bölünməsi sırf praktiki əhəmiyyət kəsb edir.

Aktauda imzalanmış konvensiya bir sıra mübahisəli məsələlərə aydınlıq gətirdi. İlk növbədə sənəd hər bir sahilyanı dövlətin ərazi sularını müəyyənləşdirdi. Sənədə görə, ərazi sularının eni 15 dəniz milindən çox olmamalıdır və bu sulara eni 10 mil olan balıqçılıq zonası əlavə edilir. Hər bir sahilyanı dövlət balıqçılıq zonasında müstəsna balıqtutma hüququna malikdir. Ərazi sularının xarici sərhədi dövlət sərhədi statusu alır. Ərazi sularından kənardakı su məkanı dövlətlərin ümumi istifadəsinə verilir. Eyni zamanda başqa bir mühüm məsələ - Xəzərin dibi ilə boru kəmərlərinin çəkilməsi problemi həllini tapmışdır. Konvensiya tərəflərin belə bir iş görmək hüququnu tanıyır, amma kəmər qonşu, yaxud qarşı ölkənin ərazi sularından keçirsə, tras müvafiq ölkə ilə razılaşdırılmalı və onun marşrutu barədə digər sahilyanı dövlətlər məlumatlandırılmalıdır. Beləliklə, Türkmənistandan Azərbaycana Transxəzər boru kəmərinin çəkilməsi yalnız Aşqabad və Bakıdan asılı olacaq. Sahilyanı dövlətləri, ilk növbədə Rusiya və İranı narahat edən başqa bir məqama - Xəzərdə kənar dövlətlərin hərbi mövcudiyyəti məsələsinə aydınlıq gətirildi. Bundan sonra hansısa xarici hərbi qüvvənin Xəzər sularında peyda olması istisna edilir.

Bununla yanaşı, konvensiya həllini tapmamış problemlərin həlli yollarını göstərir. Sənədə görə, qonşu dövlətlərin ərazi suları arasında sərhəd ikitərəfli müqavilələr əsasında müəyyənləşdiriləcək.

Xəzərin hüquqi statusu haqqında konvensiyanın imzalanması sahilyanı ölkələr arasında əməkdaşlığın möhkəmləndirilməsində mühüm mərhələ və baza sənədi kimi tarixə düşdü. Sututarın hüquqi statusunun müəyyənləşdirilməsi bütün sahilyanı ölkələr üçün faydalı olacaq. Konvensiya hər şeydən əvvəl Xəzərin təhlükəsizlik və sabitlik hövzəsinə çevrilməsi üçün hüquqi baza olaraq bədnam qüvvələrin istəklərini puç edir, bu bölgədə mehriban qonşuluğu, qarşılıqlı faydalı əməkdaşlığı möhkəmlətmək üçün zəmin yaradır.

Azərbaycanın yürütdüyü xarici siyasətin başlıca istiqamətini Ermənistanın işğalı altında olan ərazilərin azad edilməsi naminə davamlı diplomatik səylərin göstərilməsi təşkil edir. Rəsmi Bakı hələ də hesab edir ki, Ermənistan rejiminin ekspansionist planlarına, işğal etdiyi Azərbaycan torpaqlarını boşaltmaq istəməməsinə baxmayaraq, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə həlli ən optimal tənzimləmə yolu olaraq qalmalıdır. Dövlətimizin rəhbərliyi beynəlxalq təşkilatlarda Ermənistanın təcavüzkar siyasətini ifşa edir, ölkəmizin ərazi bütövlüyünə beynəlxalq dəstəyi təmin edir, eyni zamanda işğalçı tərəflə müxtəlif səviyyələrdə danışıqlar aparır. Digər tərəfdən, Azərbaycan işğalçı ölkəni təcridetmə siyasətini uğurla davam etdirir. Bununla yanaşı, təcavüzkarın qızğın başını zaman-zaman soyutmaq lazım gəlir. Azərbaycan Ordusu atəşkəsdən bəri artıq bir dəfə - 2016-cı ildə aprel döyüşləri zamanı düşmənə həddini göstərmişdir. Düşmənə keçən ilin mayında daha bir cəza verilmişdir. Silahlı Qüvvələrimiz Naxçıvan Muxtar Respublikasının 11 min hektardan artıq ərazisini və Şərur rayonunun Günnüt kəndini düşməndən azad edərək dövlət sərhədi boyunca əlverişli mövqeləri nəzarət altına almışdır. Bu cür addımların atılması ilə təcavüzkar, nəhayət, başa düşməlidir ki, problemi həll etməyin başqa bir yolu da var. Eləcə də işğalçı Ermənistana havadarlıq edən qüvvələr anlamalıdır ki, hər bir müstəqil dövlət kimi Azərbaycanın da suverenliyini və ərazi bütövlüyünü bütün mümkün vasitələrlə bərpa etmək hüququ var.

***Allahverdi MEHDİYEV,***
***“Azərbaycan”***

# Azərbaycan ilə İran arasında sərhəd təhlükəsizliyinin təminatı məsələləri müzakirə olunub




Yanvarın 9-da İranın Biləsuvar şəhərində Azərbaycan Respublikasının Dövlət Sərhəd Xidmətinin (DSX) rəisi general-polkovnik Elçin Quliyevin və İran İslam Respublikasının Sərhəd Qoşunlarının komandanı, general-mayor Qasım Rzayinin rəhbərlik etdikləri nümayəndə heyətlərinin işçi görüşü keçirilib.

Tərəflər 2018-ci il dekabrın 11-də Bakıda Azərbaycanın və İranın sərhəd qurumları rəhbərlərinin görüşü zamanı əldə olunmuş razılaşmaların icrasını nəzərdən keçiriblər. İşçi görüşündə, həmçinin sərhəd təhlükəsizliyinin təminatı məsələləri, dövlət sərhədindən buraxılış məntəqələrində şəxslər, nəqliyyat vasitələri və yüklər üzərində etibarlı sərhəd nəzarətinin təşkil edilməsi, transsərhəd cinayətkarlığın təzahürləri, o cümlədən narkotik vasitələrin qeyri-qanuni dövriyyəsi, qaçaqmalçılıq, beynəlxalq terrorçuluq, qeyri-leqal miqrasiya və digər təhdidlərlə mübarizə sahəsində sərhəd mühafizə orqanları qarşısında duran tapşırıqlara dair fikir mübadiləsi aparılıb, qarşılıqlı əlaqələndirmənin və əməkdaşlığın daha da inkişaf etdirilməsinin zəruriliyi vurğulanıb.

Söhbət zamanı Azərbaycanın və İranın iştirak etdiyi beynəlxalq əhəmiyyətli nəqliyyat layihələri çərçivəsində sərhəd infrastrukturunun təkmilləşdirilməsi, sərhəd nəzarəti prosedurunun sürətləndirilməsi məqsədilə həyata keçirilən tədbirlər nəticəsində “Astara” və “Biləsuvar” dövlət sərhədindən buraxılış məntəqələrinin 24 saatlıq iş rejiminə keçirilməsinin əhəmiyyəti vurğulanıb. Bununla yanaşı, “Astara dəmir yolu” dövlət sərhədindən buraxılış məntəqəsinin tam həcmdə fəaliyyət göstərməsi, Astara çayı üzərindən yeni avtomobil körpüsünün və piyada keçidinin tikintisi üzrə işlərin aparılması üçün hər iki tərəfdən zəruri tədbirlərin görülməsinin vacibliyi qeyd olunub.

Görüşdə sərhəd mühafizəsi sahəsində məlumat mübadiləsinin aparılması, birgə tədbirlərin təşkili və maraq kəsb edən məsələlər üzrə əməkdaşlığın inkişafı məqsədilə bilavasitə dövlət sərhədində və dövlət sərhədindən buraxılış məntəqələrində görüşlərin davamlı təşkili barədə razılıq əldə edilib.

# AHİK-də 20 Yanvar şəhidlərinin ailələrinə maddi yardımlar edilib

1990-cı il yanvarın 20-də törədilmiş qanlı hadisələrin üstündən 29 il keçsə də, Azərbaycan xalqı öz fədakar oğul və qızlarını heç zaman unutmur.

Həmin tarixdə keçmiş SSRİ rəhbərliyinin göstərişi ilə Sovet ordusu respublikamızın paytaxtına daxil olaraq dinc əhaliyə divan tutmuşdu. Həmin gecə müstəqillik uğrunda mübarizəyə qalxan, vətəni yadların tapdağından qurtarmağa çalışan yüzlərlə sakin vəhşicəsinə qətlə yetirilmişdi. Onların xatirəsi həmkarlar ittifaqları təşkilatları tərəfindən də hər il yad edilir.

Hər il olduğu kimi, bu il də Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında (AHİK) və sahə həmkarlar ittifaqlarında müstəqillik uğrunda şəhid olan vətən övladlarının anım günü ərəfəsində bir sıra tədbirlər keçirilir. AHİK-in tədbirlər planına uyğun olaraq yanvarın 9-da Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyasında 20 Yanvar faciəsi şəhidlərinin ailələri ilə görüş keçirilib.

AZƏRTAC xəbər verir ki, görüşdə AHİK-in sədri, Milli Məclisin deputatı Səttar Möhbalıyev onların problemləri ilə maraqlanıb, şəhid ailələrinin hər zaman həmkarlar ittifaqı təşkilatlarının diqqətində olduğunu, problemlərinin həllinə daim həssaslıqla yanaşıldığını, şəhid olmuş soydaşlarımızın xalqımızın qəlbində əbədi yaşayacağını, xatirələrinin həmişə əziz tutulduğunu diqqətə çatdırıb. S.Möhbalıyev iştirakçıları bir daha əmin edib ki, həmkarlar ittifaqları olaraq torpaqlarımızın azadlığı uğrunda canlarından keçən şəhid övladlarımızın ailə üzvlərinə bundan sonra da qayğı və diqqətimizi əsirgəməyəcəyik.

Sonra 104 şəhid ailəsinin hər birinə 200 manat maddi yardım təqdim edilib.

# “İlin ən gənc startup layihəsi”nin müəllifi Bakı Ali Neft Məktəbinin tələbələridir

Bakı Ali Neft Məktəbinin (BANM) tələbələri İqtisadiyyat Nazirliyi tərəfindən keçirilmiş Azərbaycanda sənayenin və sahibkarlığın inkişafına həsr edilən tədbirdə iştirak ediblər. Tədbirdə Ali Məktəbin tələbələrinin müəllifi olduqları məşhur “ThermoNorth” layihəsi “İlin ən gənc startup layihəsi” elan edilib. Layihəni hazırlayan eyniadlı komandanın kapitanı, BANM-ın V kurs tələbəsi Elmar Əsgərzadə İqtisadiyyat Naziri Şahin Mustafayev tərəfindən xüsusi plaketlə təltif olunub .



Qeyd edək ki, BANM-ın tələbələrinin müəllifləri olduqları “ThermoNorth” layihəsinin əsas məqsədi soyuq ölkələrdə maşın mühərrikini sərt hava şəraitinin təsirlərindən qorumaq üçün enerji saxlayan maddə istehsal etməkdir.

***“Azərbaycan”***

# FHN və Baş Prokurorluq Yasamal rayonunda baş vermiş partlayışla bağlı birgə məlumat yayıb

Fövqəladə Hallar Nazirliyi (FHN) və Baş Prokurorluq yanvarın 9-da paytaxtın Yasamal rayonunda baş vermiş və üç nəfərin ölümü ilə nəticələnmiş partlayışla bağlı birgə məlumat yayıb.

Hər iki qurumun mətbuat xidmətlərinin AZƏRTAC-a daxil olan birgə məlumatında bildirilir ki, yanvarın 9-da saat 03 radələrində paytaxtın Yasamal rayonu, Tolstoy küçəsi, ev 40 ünvanında yanğınla müşayiət olunan partlayışın baş verməsi barədə məlumat daxil olub.

Daxil olmuş məlumat əsasında FHN-in Əməliyyat-İstintaq İdarəsinin, Dövlət Yanğından Mühafizə və Dövlət Yanğın Nəzarəti xidmətlərinin, “Azəriqaz” İstehsalat Birliyinin, rayon polis idarəsinin və rayon prokurorluğunun əməkdaşları dərhal hadisə yerinə gəliblər. Yanğın söndürüldükdən sonra ekspertlərin iştirakı ilə hadisə yerinə baxış keçirilib və digər təxirəsalınmaz hərəkətlər yerinə yetirilib.

Hadisə yerinə baxış zamanı müəyyən edilib ki, partlayış nəticəsində həmin ünvanda yaşayan Aydın Məmmədov, arvadı Xuraman Məmmədova və qızı Aygün Məmmədova aldıqları bədən xəsarətlərindən hadisə yerində həlak olublar. Baxış zamanı, həmçinin fərdi yaşayış evinin yataq otağında divarda yerləşdirilmiş və evi qızdırmaq üçün istifadə edilən, nəzarət kranları açıq vəziyyətdə olan qaz sobası aşkarlanıb. İlkin ehtimala görə partlayış qaz sızması nəticəsində baş verib.

Faktla bağlı FHN-in Əməliyyat-İstintaq İdarəsində Cinayət Məcəlləsinin 225.2-ci (Yanğın təhlükəsizliyi qaydalarını pozma ehtiyatsızlıqdan zərərçəkmiş şəxsin ölümünə və ya digər ağır nəticələrə səbəb olduqda) maddəsi ilə cinayət işi başlanıb, məhkəmə tibbi, yanğın-texniki, tikinti-texniki, fiziki-kimyəvi və əmtəəşünaslıq ekspertizaları təyin olunub.

Hazırda təqsirkar şəxslərin müəyyənləşdirilərək məsuliyyətə cəlb olunmaları istiqamətində zəruri istintaq-əməliyyat tədbirləri davam etdirilir.

# Eviniz mübarək, yolunuz açıq olsun!

*Əvvəli 1-ci səh.*

Belə ki, sözügedən yol Bakı Dairəvi avtomobil yolu ilə Abbas Şərifzadə küçəsi arasında yeni bağlantı yaradıb. Nəticədə nəqliyyat vasitələri Badamdar şosesindən istifadə etmədən birbaşa Şərifzadə küçəsinə və Bakı Dairəsi avtomobil yoluna çıxa bilir. Dairəvi avtomobil yolundan isə nəqliyyat vasitələri həm Ələt-Qazax, həm də Biləcəri-Sumqayıt istiqamətinə rahat hərəkət edir. Başqa sözlə, bu, sürücülərin və sərnişinlərin əlavə məsafə qət etmədən və vaxt itirmədən mənzilbaşına çatması deməkdir. Yeni yol, eləcə də Badamdar şosesi, “20 Yanvar” dairəsi və “Şamaxı yolu” adlanan ərazilərdə nəqliyyatın sıxlığının azalması məqsədini daşıyır. Çünki o, şəhərin müxtəlif istiqamətlərinə çıxışı asanlaşdırır, sakinlərin rahat hərəkətini də təmin edir.

Həmin gün Mənzil İnşaatı Dövlət Agentliyinin Yasamal yaşayış kompleksinin açılışı da neçə-neçə ailənin sevincinə səbəb oldu. Kompleksin ümumi sahəsi 11,6 hektardır. Buradakı mənzillərin hamısı vətəndaşlara tam təmirli, mətbəx mebeli və qaz plitəsi, fərdi kombi sistemi ilə təchiz olunmuş vəziyyətdə təklif edilir. Kompleksin nəqliyyat infrastrukturunun yaradılması da diqqət mərkəzindədir. Bunu ərazinin Bakının əsas nəqliyyat şəbəkəsinə və metronun “İnşaatçılar” stansiyasına yaxın olması da göstərir. Bakı Nəqliyyat Agentliyi şəhərin dörd istiqamətində kompleksə marşrut xətlərinin açılmasını nəzərdə tutur.

Yeni il ərəfəsində kompleksdə yaşayan ailələrin məktəbli övladları da gözəl töhfə alıblar. Belə ki, kompleksin ərazisində 161 saylı tam orta məktəbin binası inşa edilib. Məktəbin 36 sinif otağında 960 şagird təhsil alacaq. Siniflərin hamısı zəruri tədris avadanlığı ilə təchiz olunub. Uşaqların istifadəsinə, eləcə də 6 tədris laboratoriyası veriləcək.



Kompleks layihələndirilərkən körpələr də unudulmayıb. Burada 240 yerlik uşaq bağçası tikilib. Bağçada yaradılan şərait uşaqların təlim-tərbiyəsinin yüksək səviyyədə olmasına imkan verir. Yəni buradakı qrup, məşğələ və oyun otaqları zəruri avadanlıqlarla təchiz olunub. Müasir yeməkxana balacaların gün ərzində keyfiyyətli qidalanmasını təmin edəcək. Bağçanın həyətində uşaqların əylənməsi və istirahət etməsi üçün də münasib şərait yaradılıb, attraksionlar quraşdırılıb.

Xatırladaq ki, kompleksin baş planı üzrə bu ilin sentyabr ayında 5 binada “Elektron hökumət” portalı üzərindən “Güzəştli mənzil” sistemi vasitəsilə 324 mənzil satışa çıxarılıb. Onlardan 278-nin alqı-satqısı başa çatdırılıb.

Mənzil İnşaatı Dövlət Agentliyinin yeni yaşayış komplekslərinin tikintisi istiqamətində fəaliyyəti uğurla davam edir. Elə dekabrın 26-da Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva daha bir kompleksin təməlqoyma mərasimində iştirak etdilər. Bu, ümumi sahəsi 15,4 hektar təşkil edən böyük bir kompleks 40 yaşayış binasını əhatə edəcək. Bu binalardan 22-si 9, 18-i 12 mərtəbəli olacaq. Binalarda bir, iki, üç, dörd otaqlı və studio tipli mənzillər təklif ediləcək. Mənzillərin ümumi sayı 2200-ü ötəcək. Növbəti kompleksdə də yaşayış binaları ilə yanaşı, sosial-məişət obyektləri, uşaq bağçaları, orta məktəb, balacalar üçün oyun meydançaları və s. olacaq.

Bütün bunlar o deməkdir ki, minlərlə ailə ətrafında hər cür infrastrukturu olan rahat mənzil almaq imkanı əldə edəcək. Bu prosesin davamlı olması göstərir ki, dövlət vətəndaşın rifahını daim üstün tutur, onun abad evinin, rəvan yolunun, xoş güzəranının olmasına çalışır.

***Flora SADIQLI,***
***“Azərbaycan”***

İŞİMİZ və GÜZƏRANIMIZ

# Bu il AÇG nə qədər neft verəcək



Bu il Xəzərin Azərbaycan sektorundakı “Azəri-Çıraq-Günəşli” (AÇG) yataqlarından neft hasilatının 26,56 milyon ton olacağı proqnozlaşdırılıb. Bu məlumat Hesablama Palatasının hazırladığı “ARDNF-nin 2019-cu il büdcə layihəsi ilə bağlı Rəy”də verilib.

AÇG-nin müqavilə ərazisi təxminən 432 kvadratkilometr sahəni əhatə edir. Bu yataqlar bloku Bakıdan 120 kilometr şərqdə yerləşir.

Hazırda AÇG-də fəaliyyət göstərən 6 hasilat platformasından neftin və səmt qazının çıxarılması davam edir. Keçən ilin 9 ayında bu qurğuların gündəlik hasilat göstəriciləri belə olub: “Çıraq” - 47 min barel, “Mərkəzi Azəri” - 156 min barel, “Qərbi Azəri” - 126 min barel, “Şərqi Azəri” - 97 min barel, “Dərinsulu Günəşli” - 105 min barel və “Qərbi Çıraq” - 57 min barel.

AÇG-nin işlənməsi mərhələlərlə həyata keçirilib. “Əsrin müqaviləsi” çərçivəsində “Çıraq”dan ilk neft 1997-ci ilin noyabrında hasil edilib. 2005-ci ilin əvvəlindən 2006-cı ilin sonunadək bir-birinin ardınca “Azəri” yatağının mərkəzi, qərb və şərq hissələrindəki platformalardan neft alınıb. Növbəti mərhələdə “Dərinsulu Günəşli” işlənib və 2008-ci ilin aprelində bu yataqdan da hasilata başlanıb. 2014-cü ilin yanvarından istismar olunan “Qərbi Çıraq” platformasının 5 yaşı tamam olur.

Hazırda AÇG-də ümumilikdə 112 neft hasilatı, 53 qaz və su injektor quyusu fəaliyyət göstərir.

ARDNF-nin məlumatına görə, AÇG yataqlarından əldə olunan ümumi gəlirlər 2001-ci ildən 2018-ci il dekabrın 1-dək 137 milyard 446 milyon ABŞ dolları təşkil edib. Keçən il ərzində bu yataqların hasilatından 8 milyard 960 milyon, o cümlədən “Şahdəniz”dən çıxarılan kondensatın satışından 222 milyon ABŞ dolları həcmində gəlir əldə olunub.

Xatırladaq ki, 2017-ci ilin sentyabrında imzalanmış yeni müqaviləyə əsasən, AÇG-nin işlənməsi müddəti əsrin ortasınadək artırılıb. Beləliklə, 2050-ci ilədək AÇG yataqlar blokuna 40 milyard dollardan artıq sərmayə qoyulması nəzərdə tutulur. Beynəlxalq tərəfdaşlar Azərbaycan Respublikası Dövlət Neft Fonduna 3,6 milyard dollar bonus ödəyəcəklər. Keçən il yanvarın 29-da ARDNF-yə yeni sazişə uyğun olaraq 450 milyon ABŞ dolları həcmində ilk bonus ödənişi həyata keçirilib.

“Yeni əsrin müqaviləsi” çərçivəsində AÇG-nin ərazisində daha bir platformanın quraşdırılması planlaşdırılıb. Xəzərdə “Mərkəzi Azəri” və “Şərqi Azəri” arasında, mərkəzi nöqtədə yerləşəcək bu qurğu “Mərkəzi Şərqi Azəri” platforması adlanacaq. Layihə ilə bağlı inşaat və istismara hazırlıq işlərinin 2019-cu ilin ortalarından 2022-ci ilin ortalarına qədər davam edəcəyi gözlənilir. Hasilata isə 2023-cü ildə başlanacağı nəzərdə tutulub. Mütəxəssislər “Mərkəzi Şərqi Azəri”dən gündə orta hesabla 100 min barelə qədər (lay suları ilə birlikdə) neft və 350 milyon standart kubfutadək qazın çıxarılmasının mümkün olduğunu söyləyirlər. Bu isə yaxın gələcəkdə AÇG-dən hasil olunan karbohidrogenlərin artacağını vəd edir.

*Flora SADIQLI,*
*“Azərbaycan”*

● “QARA QIZIL”

## Dünya Bankı 2019-2020-ci illərdə neftin qiyməti barədə proqnozu dəyişib

**Dünya Bankı (DB) yaxın iki il üçün neftin orta qiyməti barədə öz proqnozunu azaldaraq 1 barel üçün 67 dollara endirib. Bu, Dünya Bankının dekabrda elan etdiyi proqnozdan 4 dollar aşağıdır.**

Bu məlumat DB-nin yanvar ayı üçün “Dünya iqtisadiyyatının perspektivləri” adlı məruzəsində açıqlanıb. Məruzədə qeyd edilir ki, Dünya Bankının 2018-ci il iyun ayında dərc olunmuş məruzəsində yaxın 3 ildə neftin 1 barelinin orta qiymətinin 1 barel üçün 69 dollar, dekabr ayında dərc olunmuş məruzədə isə 71 dollar səviyyəsində olacağı proqnozlaşdırılırdı.

Məruzədə deyilir: “2019-cu və 2020-ci illərdə neftin 1 barelinin qiymətinin 67 dollar həddində olacağı gözlənilir. Bu, iyun ayında gözlənildiyindən 2 dollar aşağıdır”. Daha sonra qeyd edilir ki, bu proqnozlar, əvvəlki kimi çox qeyri-müəyyəndir. Bankın analitikləri deyirlər: “Neftə tələbatın artması gözlənilən bir vaxtda iqtisadi cəhətdən inkişaf etməkdə olan ölkələrin bazarlarında ÜDM artımının zəifləməsi üzündən bu tələbatın azalması gözlənildiyindən daha ciddi nəticə verə bilər”. Daha sonra bildirilir ki, bu vəziyyət həm də OPEK üzvü olan ölkələrin və onların tərəfdaşlarının neft hasilatı barədə necə razılığa gələcəyindən asılıdır.

● NƏQLİYYAT

## 209,5 milyon ton yük və 1,8 milyard nəfər sərnişin

Azərbaycanın iqtisadi inkişafının dinamikliyi ölkənin nəqliyyat sektorunu da xeyli canlandırmışdır. Bunu Dövlət Statistika Komitəsinin keçən ilin 11 ayı üzrə olan son məlumatındakı rəqəmlər də təsdiqləyir.



Məlumatda bildirilir ki, ötən ilin yanvar-noyabr aylarında nəqliyyat sektorunda fəaliyyət göstərən təsərrüfat subyektləri tərəfindən 209,5 milyon ton yük daşınmışdır. Bu, 2017-ci ilin eyni dövrünə nisbətən 1,5 faiz çoxdur. Daşınmanın 3,6 faizi dəniz, 6 faizi dəmir yolu, 0,1 faizi hava, 65 faizi avtomobil nəqliyyatı, 25,3 faizi boru kəmərləri vasitəsi ilə həyata keçirilmişdir.

Bu dövrdə həmçinin qeyri-dövlət sektoruna məxsus nəqliyyat vasitələri ilə daşınan yüklərin həcmi artmışdır - 2,7 faiz. Bu rəqəm kifayət etmişdir ki, daşınan ümumi yüklərin həcmində qeyri-dövlət sektoruna aid nəqliyyat vasitələrinin xüsusi çəkisi 82,4 faiz olsun.

Sözügedən müddətdə nəqliyyatçılar həmçinin 1 milyard 811,6 milyon nəfər sərnişinə (2017-ci ilin müvafiq dövrü ilə müqayisədə 1,4 faiz çoxdur) xidmət göstərmişlər. Sərnişinlərin 88,2 faizi avtomobil nəqliyyatından, 11,6 faizi metrodan, qalan hissəsi isə digər nəqliyyat növlərindən istifadə etmişlər.

● İNFORMASİYA VƏ RABİTƏ

## Gəlirlərin çox hissəsi qeyri-dövlət sektorunun payına düşür

**Bu gün Azərbaycan əhalinin müasir informasiya və rabitə vasitələri ilə əhatə olunması faizinə görə təkcə regionda yox, həm də dünyada öncül ölkələrdən sayılır.**

Azərbaycanın kosmos ölkələri sırasına daxil olması və hazırda 3 peykin orbitdə fəaliyyət göstərməsi bunu təsdiqləyən ən mühüm faktdır.

Bu baxımdan Dövlət Statistika Komitəsinin informasiya və rabitə sahəsinə aid açıqladığı son rəqəmlər də diqqət çəkir. Məlumatda bildirilir ki, keçən ilin 11 ayı ərzində ölkənin informasiya və rabitə müəssisələri 1 milyard 694,4 milyon manatlıq müxtəlif xidmətlər göstərmişlər. Bu xidmətlərin 72,7 faizindən əhali istifadə etmişdir. 2017-ci ilin eyni dövrünə nisbətən informasiya və rabitə xidmətlərinin dəyəri real ifadədə 9,2 faiz artmışdır. Sözügedən sahədə əldə edilən gəlirlərin isə 81,8 faizi qeyri-dövlət sektorunun payına düşmüşdür. O da maraqlı faktdır ki, bu sahə üzrə xidmətlərdən əldə edilən gəlirin 46,9 faizi (794,3 milyon manatı) mobil telefon rabitəsi sahəsində formalaşmışdır.

● KƏND TƏSƏRRÜFATI

# 6,6 milyard manatlıqdan çox məhsul istehsal olunmuşdur



**Ümumilikdə 2018-ci ili ölkənin aqrar sektoru üçün uğurlu dövr hesab etmək olar. Ötən il Azərbaycanın kənd təsərrüfatı, o cümlədən ərzaq məhsulları idxalından asılılığını minimuma endirilməsi və bununla ərzaq təhlükəsizliyi məsələsinin həlli istiqamətində atılan mühüm addımlar, həyata keçirilən islahatlar nəticəsiz qalmamışdır.**

Dövlət Statistika Komitəsinin ötən ilin yanvar-noyabr aylarını əhatə edən son məlumatına görə ölkədə faktiki qiymətlərlə dəyəri 6 milyard 616,2 milyon manatlıq kənd təsərrüfatı məhsulları istehsal olunmuşdur ki, bunun da 3 milyard 496,7 milyon manatlığı heyvandarlıq, 3 milyard 119,5 milyon manatlığı bitkiçilik məhsullarının payına düşmüşdür. 2017-ci illə müqayisədə kənd təsərrüfatı məhsullarının istehsalı ümumilikdə 4,6, o cümlədən heyvandarlıq üzrə 2,7, bitkiçilik üzrə 6,6 faiz artmışdır.

Keçən il dekabrın əvvəlinə olan məlumata görə, payızlıq və yazlıq dənli, eləcə də dənli paxlalı bitkilərin (qarğıdalısız) əkin sahəsinin 1 milyon 49,4 min hektarı (99,8 faizi) biçilmiş və həmin sahələrdən 3 milyon 59,9 min ton və ya 2017-ci ilin eyni dövründəkindən 13,7 faiz çox məhsul götürülmüşdür. Hər hektarın məhsuldarlığı orta hesabla 29,2 sentner olmuşdur. Bundan əlavə, məhsulu toplanmış 31,7 min hektar dən üçün qarğıdalı sahəsindən 226,8 min ton məhsul yığılmışdır ki, bu da orta hesabla 71,5 sentner məhsuldarlıq deməkdir. Beləliklə, qarğıdalı da nəzərə alınmaqla ölkə üzrə taxıl istehsalı 3 milyon 286,7 min tona çatmışdır.

Sözügedən dövrədək sahələrdən həmçinin 1 milyon 446,6 min ton (əvvəlki ilin eyni dövründəkindən 5,6 faiz çox) tərəvəz, 889,4 min ton kartof, 401,6 min ton bostan məhsulları toplanmışdır. Orta məhsuldarlıq tərəvəzçilik üzrə 10, bostan məhsulları üzrə 5 sentner artmışdır.

Ötən ili pambıqçılıq üçün də uğurlu hesab etmək olar. Belə ki, əkilmiş 132,5 min hektardan cari il yanvarın 8-nə olan məlumata görə, 232,2 min tondan artıq pambıq yığılmışdır. Bu isə 2017-ci ildəkindən 12,1 faiz çoxdur. Pambıqdan savayı keçən mövsüm Azərbaycan fermerləri 11,6 min hektarda dən üçün günəbaxan, 8,6 min hektarda şəkər çuğunduru, 3,4 min hektarda tütün əkmişlər. 2018-ci ilin son ayının əvvəlinə olan məlumata görə, həmin sahələrdən 24,2 min ton dən üçün günəbaxan, 284,5 min ton şəkər çuğunduru, 5,7 min ton tütün toplanmışdır. Hesabat dövrünədək ölkə üzrə həmçinin 998,4 min ton meyvə və giləmeyvə, 154,8 min ton üzüm, 868,6 ton yaşıl çay yarpağı tədarük edilmişdir.

Heyvandarlığa gəldikdə, 2018-ci ilin 11 ayının məlumatına görə, 463,6 min ton ət, 1 milyon 899 min ton süd, 1 milyard 534,7 milyon ədəd yumurta, 15,7 min ton yun istehsal olunmuşdur. Eyni zamanda, həmin dövrdə 514 ton barama istehsal edilmişdir ki, bu da son 20 ilin ən yüksək göstəricisidir. Xatırladaq ki, 2017-ci ildə ölkə üzrə istehsal edilən baramanın həcmi 245 ton olmuşdur.

● KREDİT QOYULUŞU

## Ölkə üzrə ümumi kredit portfelinin həcmi 12,2 milyard manatdan çoxdur



Məlumdur ki, kredit qoyuluşu ölkələrin iqtisadi inkişafına stimul verən əsas vasitə sayılır və Azərbaycan da bu sırada istisna deyil. Dayanıqlı bank sisteminin mövcudluğu, sabit milli valyuta, geniş meydan verilən özəl sektor ölkəmizdə kredit qoyuluşlarının artımında mühüm rol oynayır.

Mərkəzi Banka istinadən Dövlət Statistika Komitəsinin yaydığı son məlumata görə, ötən il noyabrın 1-nə Azərbaycanın bank və digər kredit təşkilatlarının kredit portfeli milli valyuta ekvivalentində 12 milyard 281,3 milyon manat olmuşdur. Ümumi kredit portfelinin 79,6 faizi (9 milyard 779,1 milyon manatı) uzunmüddətli kreditlərin payına düşmüşdür. Kreditlərin 96,8 faizi banklar, 3,2 faizi isə bank olmayan kredit təşkilatları və kredit ittifaqları tərəfindən verilmişdir.

Məlumatda o da bildirilir ki, sözügedən dövrədək ölkə üzrə vaxtı keçmiş kreditlərin məbləği ümumi kredit portfelinin 13,8 faizinə bərabər olmuşdur.

# MADE İN AZERBAİJAN




# İşinin və sabahının sahibi

## Dövlətin dəstəyi özəl sektoru böyük gücə çevirib

Əvvəli 1-ci səh.

Bütün bunlar Azərbaycanın iqtisadi inkişaf strategiyasında sahibkarlığın yerinin nə qədər uzaqgörənliklə və düzgün bir şəkildə müəyyən olunduğunu qabarıq şəkildə nümayiş etdirir. Ölkənin yeni müstəqillik tarixinin təhlil və mənzərəsi isə öz növbəsində belə bir reallığı ortaya qoyur ki, digər mühüm sahələrdə olduğu kimi, Azərbaycanda sahibkarlıq institutunun formalaşıb inkişaf etməsinin müəllifi də ümummilli lider Heydər Əliyevdir.

Heydər Əliyevin rəhbərliyi dövründə iqtisadi sahələrin tənzimlənməsi ilə bağlı 70-dən artıq qanun qəbul olunub, 100-dən çox fərman və sərəncam imzalanıb, 30-a yaxın dövlət proqramı təsdiq edilib. Ümummilli liderin sahibkarlarla keçirilən görüşləri, üzləşdikləri problemlərin nədən ibarət olduğunu bilavasitə onların öz dilindən eşitməsi və bunların qısa müddət ərzində həlli üçün konkret tapşırıqlar, fərman və sərəncamlar verməsi özəl sektorun təmsilçilərinə yüksək diqqətin təzahürü idi.

### Sahibkarlar inkişafa layiqli töhfələr verirlər

Son 15 ildə isə Prezident İlham Əliyevin həyata keçirdiyi iqtisadi siyasət sahibkarlığın tərəqqisinin təminində, yerli istehsal və sosial infrastrukturun yaradılmasında, güzəştli kreditlərin ayrılmasında, insan kapitalı və təbii ehtiyatlardan səmərəli istifadə yolu ilə mövcud potensialın reallaşdırılmasında, yerli və xarici investorların ölkəyə, xüsusilə regionlara cəlb olunmasında yeni bir səhifə açıb.

Aparılan islahatlar daha geniş vüsət alaraq həm də sosial-iqtisadi inkişaf sahəsində keyfiyyətcə yeni bir mərhələnin əsasını qoyub. Bu kontekstdə ölkədə sahibkarlığın inkişafı məqsədilə biznes mühitinin daim yaxşılaşdırılması, bu sahədə qanunvericilik bazasının təkmilləşdirilməsi, yerli və xarici investisiyaların, müasir texnologiyaların, idarəetmə təcrübəsinin cəlb edilməsi və bu yolla yüksək keyfiyyətli, rəqabətqabiliyyətli məhsulların istehsal edilməsi Prezident İlham Əliyevin müəyyən etdiyi iqtisadi inkişaf strategiyasının prioritetlərindəndir.

**Ötən 15 ildə artımın statistikası**

| | | |
|---|---|---|
| 4,2 | dəfə | sahibkarlıq subyektlərinin sayı |
| 2 | dəfə | kiçik müəssisələrin sayı |
| 5 | dəfə | fərdi sahibkarların sayı |
| 4,1 | dəfə | qeyri-neft məhsulları ixracı |
| 2,6 | dəfə | ixrac olunan mal çeşidlərinin sayı |
| 250 | milyard dollar | iqtisadiyyata qoyulan investisiya |
| 2,2 | milyard manat | 35 mindən çox sahibkara verilən güzəştli kredit |



Görülmüş tədbirlər nəticəsində 2003-2018-ci illərdə ölkəmizin qeyri-neft məhsulları ixracı 4,1, ixrac olunan mal çeşidlərinin sayı 2,6 dəfə artıb. Eyni zamanda, sahibkarlıq subyektlərinin sayı 4,2, hüquqi şəxslərin sayı 1,9, kiçik müəssisələrin sayı 2, fərdi sahibkarların sayı 5 dəfə çoxalıb. Müstəqillik qazandıqdan sonra ölkə iqtisadiyyatına 250 milyard dollar investisiya qoyulub.

Özəl sektorun dəstəklənməsi, sahibkarların hüquq və mənafelərinin qorunması sahəsində yeni iqtisadi şəraitə uyğun islahatlar həyata keçirilir, bu sahənin inkişafı üçün beynəlxalq təcrübə nəzərə alınmaqla müasir çağırışlara cavab verən mexanizmlər tətbiq olunur. Sahibkarlığa dövlət dəstəyi tədbirləri nəticəsində sahibkarlıq subyektlərinin sayının son 15 il ərzində artması, ölkəmizdə iş yerlərinin 75 faizinin məhz özəl sektorun payına düşməsi bu prosesin dönməz xarakter aldığını bir daha təsdiq edir.

### Biznesdə prosedur və qaydalar sadələşdirilir

Son illərdə ölkədə sahibkarlıq fəaliyyətini tənzimləyən prosedur və qaydalar xeyli liberallaşdırılıb, sahibkarlığa dövlət maliyyə yardımı mexanizmi işə salınıb, ölkədə bəzi məhsullara ixrac rüsumları ləğv edilib, idxalda rüsumların 15 faizlik maksimal həddi müəyyənləşdirilib.

Bu baxımdan ölkə iqtisadiyyatının, xüsusilə də özəl sektorun inkişafında keyfiyyətcə yeni mərhələ başlanıb. Bu mərhələdə sahibkarların fəaliyyətinə əsassız və qanunsuz müdaxilələrin, bürokratik yoxlamaların aradan qaldırılması, liberal biznes mühitinin formalaşdırılması xüsusi diqqət mərkəzindədir. Sahibkarlıq subyektlərində yoxlamaların 2021-ci ilədək dayandırılması öz müsbət nəticələrini verib.

Eyni zamanda, lisenziya tələb olunan fəaliyyət növlərinin sayı azaldılmış, lisenziyalar müddətsiz müəyyən edilmiş, dövlət rüsumunun məbləği Bakıda 2 dəfə, regionlarda isə 4 dəfə azaldılıb, lisenziyaların İqtisadiyyat Nazirliyi tərəfindən "ASAN xidmət" mərkəzlərində verilməsinə və "Elektron lisenziya" portalının yaradılmasına başlanılmışdır. Əvvəllər müxtəlif sahibkarlıq fəaliyyətlərinə bütünlükdə 330 icazə tələb olunurdusa, "Lisenziyalar və icazələr haqqında" qanunun qüvvəyə minməsi ilə bütün icazələr vahid sənəddə göstərilir, onların sayı 86-ya, lisenziyalar 59-dan 37-yə endirilib.

### Kreditlərin böyük hissəsi aqrar sektorun inkişafına yönəldilib

Sahibkarlığın maliyyə resursları ilə təmin olunması əsas mexanizmlərdəndir. İqtisadiyyat Nazirliyi tərəfindən investisiya layihələrinin ümumi dəyəri 4,9 milyard manat olan 35 mindən çox sahibkara 2,2 milyard manat güzəştli kredit verilib. Bu kreditlərdən istifadə etməklə investisiya layihələrinin reallaşdırılması nəticəsində 164 minə yaxın yeni iş yerinin açılması imkanı yaradılıb. Güzəştli kreditlərin 72 faizi aqrar sektorun, 28 faizi sənaye və digər sahələrin inkişafına yönəldilib. Bu kreditlərin 75 faizi regionların, 25 faizi Bakı qəsəbələrinin payına düşür.

Sərbəst biznes və azad sahibkarlar sinfinin formalaşması Azərbaycanın inkişafına çox böyük töhfədir. Bu da sirr deyil ki, azad sahibkarlıq yalnız o ölkələrdə uğurla inkişaf edir ki, orada sahibkarlara, sahibkarlar sinfinə dövlət tərəfindən qayğı var, diqqət var. Bu gün bu qayğını bütün sahibkarlar hiss edirlər. Prezident İlham Əliyevin qeyd etdiyi kimi, gələcəkdə də Azərbaycanda sahibkarlığın inkişafına böyük diqqət göstəriləcək, sağlam rəqabət təmin olunacaq. Azad sahibkarlığın inkişafı, onların maneələrlə üzləşmələri üçün dövlətimiz üzərinə düşən məsələləri həll edir. Ölkə rəhbəri daim sahibkarların qanuni maraqlarını müdafiə edir. Eyni zamanda, sahibkarlar buna adekvat olaraq özəl sektorda üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirirlər.

*Rəşad CƏFƏRLİ, "Azərbaycan"*

## Bu gün Dubayda "Azərbaycan Ticarət Evi" açılır




**Yanvarın 10-da Birləşmiş Ərəb Əmirliklərinin Dubay şəhərində "Azərbaycan Ticarət Evi" açılacaq. Bu barədə İqtisadiyyat Nazirliyinin mətbuat xidmətindən məlumat verilib.**

"Made in Azerbaijan" brendinin təşviqi məqsədilə Dubayda yaradılacaq "Azərbaycan Ticarət Evi" yerli məhsulların tanıdılması və ixracın artırılması istiqamətində fəaliyyət göstərəcək. Xatırladaq ki, Azərbaycanın ilk ticarət evi 2017-ci ildə Belarusda açılıb. Hazırda Rusiya, Ukrayna, Belarus, Latviya, Polşa və Çində Azərbaycan ticarət evləri fəaliyyət göstərir. Növbəti ticarət evi Azərbaycanın xarici ölkələrdəki sayca 7-cisi olacaq.

Bu il daha 3 ölkədə Azərbaycan ticarət evinin açılması planlaşdırılır. İqtisadiyyat Nazirliyindən aldığımız məlumata görə, bunlar Çin (ikinci ticarət evi), Rusiya (ikinci ticarət evi) və Qazaxıstandır.



## Danimarkaya alüminium ixracına başlanılıb

**Dünya bazarında "Made in Azerbaijan" brendinin uğurlu təmsilçilərindən biri olan Sumqayıt Texnologiyalar Parkı Danimarkanın özəl şirkəti ilə 110 tonluq alüminium profil istehsalını nəzərdə tutan müqavilə bağlayıb.**

Texnoparkın Alüminium Profillər Zavodu sifarişçi şirkətin istəyinə uyğun qəliblər hazırladıqdan sonra istehsala başlayaraq sifarişi uğurla tamamlayıb və istehsal olunan məhsullar Danimarkaya yola salınıb.

2014-cü ildə istismara verilən STP-nin Alüminium Profillər Zavodunda fasad və standart formada olmaqla isti və soyuq seriyalı profillər, alüminium boşluqlar, pəncərə sistemləri, alüminium elektrik şinləri, habelə müştərinin istəyinə uyğun digər alüminium məhsulları istehsal olunur.

## "Made in Azerbaijan" Nigeriyada

**Azərbaycan məhsullarının xarici bazarlarda "Made in Azerbaijan" brendi ilə satışa çıxarılması istiqamətində görülən işlər müsbət nəticələrini verməkdədir.**

Hər il keyfiyyətli Azərbaycan məhsullarının ixrac coğrafiyası böyüyür. Sifarişlər artdıqca çeşid də çoxalır. Artıq məhsullarımız Afrika qitəsində də məşhurlaşır. Nigeriyanın prestijli "La Pounte" supermarketində "Made in Azerbaijan" brendi ilə Azərbaycan məhsullarının satışına başlanılıb.




# Sifariş çoxalır, ixrac artır



Mingəçevir Sənaye Parkının "Made in Azerbaijan" markası ilə istehsal etdiyi yüksək keyfiyyətli ipliyə dünya bazarında maraq böyükdür

**Ölkə iqtisadiyyatını neft sektorunun asılılığından xilas etmək məqsədilə Prezident İlham Əliyevin təşəbbüsü ilə həyata keçirilən möhtəşəm layihələr gözlənilən bəhrəsini verməkdədir.**

Ölkənin müxtəlif bölgələrində yaradılmış sənaye parkları elə ilk mərhələdəki səmərəli fəaliyyəti ilə ümidləri doğruldur. İqtisadiyyatın şaxələndirilməsi istiqamətində atılan hər inamlı addım uğurla müşayiət olunur.

### Yeni sənaye nəhəngi

Son illər ölkədə pambıqçılığın dinamik şəkildə inkişafına paralel olaraq bu sahədə modern emal və istehsal müəssisələri də yaradılır və onlar səmərəli fəaliyyəti ilə diqqət çəkir. Artıq ölkədə pambıq istehsalı 232 min ton səviyyəsinə çatıb. Əlbəttə, bu, böyük uğurdur, amma son hədd deyil. Pambıqçılığın inkişafına dövlət səviyyəsində verilən böyük dəstək, ölkənin torpaq istifadəçilərində bu gəlirli sahəyə artan maraq qarşıdakı illərdə pambıqçılıqda yeni zirvələrin fəth olunacağını labüd edir.

Qeyri-neft sektorunu dirçəltmək üçün hazırlanan strateji layihələrdə mütərəqqi texnologiyalara əsaslanan yeni sənaye müəssisələri yaratmaq prioritet istiqamət kimi qəbul edilir. Bunun sadə izahı budur ki, bu gün bizə, ölkə iqtisadiyyatına pambığı xaricə xammal kimi deyil, iplik, parça, paltar kimi satmaq sərfəlidir. Bu, təbii ki, həm ölkəyə böyük məbləğdə valyuta gətirir, həm də yeni iş yerlərinin açılmasında, əhalinin faydalı məşğulluğunun təmin edilməsində mühüm rol oynayır. Bu zərurətdən yaranan yeni və güclü sənaye müəssisələri sırasında Mingəçevir Sənaye Parkının xüsusi yeri var. Bu yeni sənaye nəhəngi ölkəmizdə uğurla reallaşdırılan iqtisadi islahatların məntiqi nəticəsidir. Təsadüfi deyil ki, 2016-cı il sentyabrın 21-də Mingəçevir Sənaye Parkının təməlqoyma mərasimində Prezident İlham Əliyev iştirak edərək bu möhtəşəm layihəyə xeyir-duasını verib.

### İndi pambığı, mahlıcı yox, parçanı ixrac edirik

Dövlət başçısı sənaye parkının açılış mərasimində çıxış edərək əsas məqsədləri açıqlamışdı. Bunlar qeyri-neft ixracının artırılması və bu istiqamətdə həyata keçiriləcək layihələrin daha da genişlənməsidir: "Bu fabrikin timsalında biz ölkəmizin hərtərəfli inkişafını görürük. Çünki bu, böyük sənaye mərkəzidir, sənaye müəssisələridir. Eyni zamanda, burada əsas xammal yerli pambıqdır, mahlıcdır. Son illər ərzində pambıqçılığın sürətli inkişafı bu fabriklərin yaranmasına zəmin oldu. Əgər biz iki il bundan əvvəl pambıqçılığın dirçəlməsi ilə ciddi məşğul olmasaydıq, bu fabriklər də yaranmayacaqdı. Çünki xaricdən mahlıc alıb, burada onu ipliyə çevirmək çox bahalı bir proses ola bilərdi. Ona görə son iki il ərzində Azərbaycanda pambıq istehsalı 35 min tondan 207 min tona qalxıb. Ümid edirəm ki, bu il daha çox pambıq yığımı nəzərdə tutulur. Pambığın, mahlıcın əsas hissəsi Azərbaycanda emal olunacaq, beləliklə, əlavə dəyər, iş yerləri yaranacaq və biz mahlıcı yox, hazırda ipliyi, gələcəkdə isə hazır məhsulu, tekstili, parçanı ixrac edə və daxili bazarı təmin edə bilərik".

### Əsas ticari tərəfdaşlar Türkiyə və Rusiya sənayeçiləridir

Mingəçevir Sənaye Parkında yüngül sənaye məhsulları, o cümlədən iplik, boyama, toxuma, tikiş, corab, ayaqqabı və tibbi kosmetika istehsalı üzrə 9 fabrik yaradılacaq. Hələlik iplik fabriki fəaliyyət göstərir. Burada iplik iki üsulla alınır - "Rinq" və "Open end".

"Rinq" üsulu ilə alınan polister iplik daha zərif və yumşaqdır. Ondan əsasən köynək istehsalında istifadə olunur. "Open end" üsulu ilə alınan iplik isə nisbətən qaba liflərdən hazırlanır. Sənaye parkının "Made in Azerbaijan" markası ilə istehsal etdiyi yüksək keyfiyyətli ipliyə dünya bazarında maraq böyükdür. Bu barədə Mingəçevir Sənaye Parkının direktoru Mehman Hüseynov həvəslə danışır:

- Mingəçevir Sənaye Parkı yeni dövrün iqtisadi islahatlarının müəllifi Prezident İlham Əliyevin həyata uğurla vəsiqə alan möhtəşəm ideyalarının məntiqi nəticəsidir. Bizim kollektivdə fəhlədən tutmuş rəhbərə qədər hər kəs üzərinə düşən vəzifənin məsuliyyətini dərk edərək çalışır. Arxada qalan ayların iqtisadi göstəricilərinə əsaslanıb deyə bilərəm ki, sənaye parkı gözlənilən ümidləri doğruldur. Bizim markaya maraq böyükdür. Hələlik Türkiyə və Rusiya sənayeçiləri ilə ticari əlaqələr yaradılıb. İstehsal etdiyimiz iplik bu iki ölkəyə ixrac olunur.



### Müəssisə Çin bazarına da çıxmağa hazırlaşır

Mehman Hüseynovun sözlərinə görə, müəssisə Çin bazarına çıxmağa hazırlaşır. Çünki Çin bazarı kifayət qədər böyük və sərfəlidir. İxrac etdilən məhsulla bağlı heç bir irad və narazılıq yoxdur: "Sənayeçi olaraq fəaliyyətimizin ana xəttində keyfiyyətli məhsul istehsal etmək dayanır. Bu, dünyada Azərbaycan markasının şöhrətini artırmaq üçün çox vacib şərtdir. Dövlətin qayğısı, güclü dəstəyi bizə ruh verir, qarşımızda yeni üfüqlər açır".

İlk addımlarını atan Mingəçevir Sənaye Parkında hələlik 600 nəfərdən çox şəhər sakini çalışır. Zamanı gəldikcə burada yeni fabriklər də fəaliyyətə başlayacaq, qeyri-neft sektorunun inkişafına yönəlik möhtəşəm layihələr uğurla reallaşacaq. Hələlik birinci mərhələdə dünya bazarına "Made in Azerbaijan" markası ilə iplik çıxarılır. Bu günün uğurları sabaha olan ümidləri artırır.

*Lazım QULİYEV, "Azərbaycan"*



## Azərbaycan Şimali Qafqazda əsas investorlardandır

**Bu il Moskvada Azərbaycanın iki şərab evinin açılması nəzərdə tutulur.**

Məlumata görə, Rusiyanın Yekaterinburq və Sankt-Peterburq şəhərlərində Azərbaycan şərab evlərinin açılması ilə bağlı işlər aparılır.




Qeyd edək ki, Azərbaycan Rusiyanın Şimali Qafqaz regionunda əsas investorlarından sayılır. Azərbaycanda isə təqribən 760 Rusiya kapitallı şirkət fəaliyyət göstərir.

Həmçinin bu il Bakıda Rusiya Federasiyasının Həştərxan vilayətinin işgüzar mərkəzi açılacaq. Yeni mərkəz Azərbaycan bazarına Rusiya mallarının tədarükünü artırmağa imkan verəcək.

Qeyd edək ki, hazırda Həştərxan vilayətindən Azərbaycana gəmiqayırma məmulatları, balıq və un məhsulları idxal olunur.

# Asiyada ilk ticarət evimiz

## Azərbaycandan Çinə bol çeşiddə məhsul ixrac olunur

**Azərbaycanda aparılan iqtisadi islahatların mühüm istiqamətlərindən biri qeyri-neft məhsullarının ixrac potensialının artırılması və ixraca yönəlik sahələrin inkişafıdır.**

İxrac fəaliyyətinin əsas hissəsi isə xarici bazarlara çıxış, bazar araşdırmaları, bazarlarda milli sahibkarların maraqlarının qorunması və ticarət maneələrinin aşılmasıdır.

### İxrac coğrafiyası getdikcə böyüyür

Prezident İlham Əliyevin 3 il öncə ixracın təşviq edilməsi sahəsində imzaladığı fərman və sərəncamlar Azərbaycanın həm iqtisadi inkişafında, həm də xarici iqtisadi əlaqələrinin genişləndirilməsində yeni mərhələnin başlanğıcını qoyub. İxracın genişləndirilməsi, rəqabətqabiliyyətli məhsulların ənənəvi və yeni bazarlara çıxışının artırılması ilə bağlı imzalanmış sənədlərə uyğun olaraq xarici ölkələrdə Azərbaycan ticarət evləri yaradılır. Bu evlərin yaradılmasında əsas məqsəd ölkəmizin qeyri-neft sektoru üzrə ixrac potensialının artırılmasına, "Made in Azerbaijan" brendinin xarici ölkələrdə daha da şöhrət qazanmasına nail olmaqdır.

Hazırda Azərbaycanın bir neçə ölkədə ticarət evləri fəaliyyət göstərir və məhsullarımızın ixrac coğrafiyası getdikcə böyüyür. Məhsullarımızın daha çox satıldığı ölkələrdən biri də Çin Xalq




Respublikasıdır. Ötən ilin sentyabrın 28-də bu ölkənin Lucou şəhərində "Azərbaycan Ticarət Evi" açılıb.

### Azərbaycanın Çinlə münasibətləri yeni inkişaf mərhələsindədir

Öncə onu vurğulayaq ki, Çin ilə Azərbaycan arasında son illər iqtisadi əlaqələr həm ticarətin, həm də investisiyaların sürətlə artması ilə daha sıx əməkdaşlıq səviyyəsinə çatıb. Cənubi Qafqaz regionunda, Avropa ilə Asiyanın kəsişməsində yerləşən Azərbaycan həmçinin Çinin "Kəmər və Yol" təşəbbüsü üzrə mühüm coğrafi mövqeyə malikdir.

Azərbaycan Çinə ənənəvi olaraq əsasən neft, xammal və kimya sənayesi məhsulları ixrac edir. Ötən ildən etibarən Çinə ixrac olunan məhsullar kənd təsərrüfatı, ərzaq və şərabçılıq kimi digər sahələri də əhatə etməyə başlayıb.

Çin şirkətləri Azərbaycana 800 milyon dollara yaxın investisiya yatırıblar. Azərbaycanda 112 Çin kapitallı şirkət fəaliyyət göstərir. Azərbaycanda 3 sement zavodunun tikintisi Çinin podratçı şirkətləri tərəfindən uğurla icra edilib.

### Azərbaycan Çinə nə satır

Ticarət evimiz Siçuan vilayətinin Lucou şəhərindəki Azad Ticarət Zonasında yerləşir. Yəni, burada Azərbaycan məhsullarının daha geniş arealda tanıdılması imkanları var. Bu ticarət evi məhsullarımızı təqdim etməklə yanaşı, ölkəmizin iqtisadi potensialı, turizm, nəqliyyat və logistika imkanlarına dair məlumatların Lucouda geniş yayılmasına imkan yaradır.

Yancı çayının üzərində yerləşən və liman şəhəri olan Lucouda açılan "Azərbaycan Ticarət Evi"nin ümumi sahəsi 600 kvadratmetrdir. Burada ölkəmizdə istehsal olunan ixracyönümlü və rəqabətqabiliyyətli ərzaq və qeyri-ərzaq məhsulları, o cümlədən çay, mineral sular, spirtli içkilər, meyvə-tərəvəz və onlardan emal olunmuş məhsullar (meyvə şirələri, kompotlar, konservlər, mürəbbələr, turşular, bitki yağları) nümayiş olunur.

### Yeni bazar, yeni məhsullar

Azərbaycan memarlıq nümunələrinin elementləri əsasında dizayn edilmiş ticarət evində məhsullarımızın sərgisi, topdan və pərakəndə satışı, habelə dequstasiyası həyata keçiriləcək. Bundan başqa, ticarət evi Azərbaycan məhsullarının Çin bazarında daha çox tanıdılmasına, ixracın təşviqi və genişləndirilməsinə dəstək göstərəcək, bu sahədə əlaqələndirməni həyata keçirəcəkdir.

Ticarət evini ziyarət edənlər stendlər, fotoşəkillər vasitəsilə Azərbaycanın investisiya imkanlarına, biznes mühitinə, nəqliyyat-logistika imkanlarına, turizm və kənd təsərrüfatı potensialına dair geniş məlumat əldə edə bilirlər. Azərbaycan xalqının əsrlər boyunca yaratdığı mədəni irsin də təbliğ olunduğu ticarət evində nümayiş edilən eksponatlar, xalça nümunələri, milli geyimlər və suvenirlər, müxtəlif nəşrlər xalqımızın zəngin mədəniyyəti haqqında geniş təsəvvür yaradır.

*Rəşad BAXŞƏLİYEV, "Azərbaycan"*

Afad Qurbanov - 90

# Dilçilik elmimizin parlaq siması

Bu günlərdə Azərbaycanın görkəmli dilçi alimi, əməkdar elm xadimi, respublika Dövlət mükafatı laureatı, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, filologiya elmlər doktoru, professor Afad Qurbanovun anadan olmasının 90 ili tamam olur. Afad Qurbanov çoxcəhətli və geniş diapazonlu elmi yaradıcılığı ilə ölkəmizdə dilçilik elmini zənginləşdirən, ona öz dəyərli töhfələrini verən nadir istedad və zəka sahiblərindən, öz dəst-xətti ilə seçilən elm xadimlərindən biri kimi tanınır, böyük ehtiramla və hörmətlə xatırlanır, yad edilir.

Azərbaycan dilçiliyinin istiqamətlərinin müəyyənləşdirilməsində, dilçiliyin aktual problemlərinin tədqiqində və tədrisində böyük xidmətləri olan bu görkəmli alim "Azərbaycan ədəbi və danışıq dili", "Müasir Azərbaycan ədəbi dili", "Ümumi dilçilik" (I, II cildlər), "Türkoloji dilçilik" (5 cilddə), "Müasir Azərbaycan ədəbi dili" (2 cilddə), "Azərbaycan dilçiliyi problemləri" (3 cilddə), "Azərbaycan onomastikası", "Antroponim nəzəriyyəsi", "Poetik onomastika", "Azərbaycan dilinin onomalogiyası", "Azərbaycan onomastika məsələləri", "Dünyanın dilailələri", "Müasir Azərbaycan ədəbi dili", "Azərbaycan dilçiliyi problemləri", "Azərbaycan onomalogiyasının əsasları" (2 cilddə) və digər monoqrafiya və dərsliklərin müəllifidir. Gərgin elmi axtarışların uğurlu nəticəsi olan bu sanballı əsərlərdə dilçiliyin aktual məsələləri araşdırılır, elmi anlayışlar dəqiqləşdirilir, dil və dilçilik tarixi ilə əlaqədar yeni müddəa və elmi təsniflər verilir. A.Qurbanovun əsərlərində Azərbaycan dilçiliyinin inkişafı və perspektivləri, dilçiliyin linqvistik və fəlsəfi nəzəri əsaslar üzərində təşəkkül tapması, eləcə də elmlərin təsnifi və dilçilik tarixinin müəyyənləşdirilməsi problemlərinə aydınlıq gətirilmişdir. Aspirantlıqdan Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvlüyünə qədər şərəfli bir tədqiqat yolu keçən A.Qurbanov 1962-ci ildə görkəmli dilçi alim, professor Əbdüləzəl Dəmirçizadənin rəhbərliyi ilə "S.Vurğunun "Vaqif" pyesinin dili və üslubu" mövzusunda namizədlik, 1968-ci ildə isə "Müasir Azərbaycan ədəbi dili" mövzusunda doktorluq dissertasiyası müdafiə etmişdir. Afad Qurbanov 1965-ci ildə dosent, 1970-ci ildə isə professor elmi adına layiq görülmüşdür. O, 1959-cu ildən ömrünün sonuna qədər - əlli il Azərbaycan Pedaqoji İnstitutunda (indiki Azərbaycan Dövlət Pedaqoji Universiteti) müəllim, dekan, kafedra müdiri, filologiya və pedaqogika elmləri üzrə müdafiə şurasının sədri, 1981-1989-cu illərdə isə bu ali təhsil ocağının rektoru olmuşdur. Professor A.Qurbanov 1983-cü ildə Azərbaycan SSR Elmlər Akademiyasının müxbir üzvü seçilmişdir. O, həmçinin dünyanın bir sıra beynəlxalq və milli akademiyalarının fəxri akademiki, o cümlədən Türk Dil Qurumunun fəxri üzvü olmuşdur. 1990-1994-cü illərdə Milli Məclisin deputatı olan Afad Qurbanov Azərbaycan Əlifbası Komissiyasının sədri olmuşdur.

Professor A.Qurbanovun elmi yaradıcılığı zəngin və çoxşaxəli, istiqamətli, mövzu dairəsi baxımından olduqca geniş və əhatəlidir. Alimin tədqiqat və maraq dairəsinə müasir Azərbaycan ədəbi dili, türkoloji dilçilik, dil universiyaları, ümumi dilçilik, onomalogiya, leksikologiya, nitq mədəniyyəti, tərcüməşünaslıq, bədii əsərlərin dili, üslubiyyat, ali məktəb pedaqogikası və metodikası kimi sahələr daxildir. Məlum olduğu kimi, dilçiliyin son illərdəki inkişafının mühüm nailiyyətlərindən biri yeni bir dilçilik sahəsinin - onomastikanın yaranması və formalaşmasıdır. Azərbaycan dilçiliyində ilk dəfə olaraq onomastika məsələlərinin sistemli şəkildə uğurlu həlli və geniş tədqiqi A.Qurbanovun adı ilə bağlıdır. Qeyd edək ki, onomastika bir elm sahəsi kimi xüsusi adları (insan adları, coğrafi adlar, tayfa adları və s.) öyrənir və tədqiqat obyektindən asılı olaraq antroponimika, toponimika, etnonimika və s. bölmələrə bölünür. Azərbaycan dilindəki şəxs adlarının özəl xüsusiyyətləri, onların mahiyyəti, sistemi, yaranması, mənşəyi, məna əsası, yayılma regionu, quruluşu, inkişaf tarixi, təkmilləşməsi, üslubi imkanları, bir dildən başqa bir dilə transliterasiyası antrotoponimikanın əsas problemləri məhz onun əsərlərində araşdırılmışdır. Azərbaycan dilçiliyi tarixində ilk dəfə olaraq antroponimlərin inkişaf dövrlərini müəyyənləşdirən, hər bir dövrün səciyyəvi cəhətlərini konkret dilfaktları ilə əsaslandıran da A.Qurbanov olmuşdur. A.Qurbanovun onomalogiya məsələlərinə dair 100-ə yaxın məqaləsi, eləcə də "Antroponim nəzəriyyəsi", "Azərbaycan onomastikası" və "Azərbaycan onomalogiyasının əsasları" (2 cilddə) adlı monoqrafiyaları orijinallığı ilə diqqəti cəlb edir. Bu əsərlərdə xüsusi adların qrupları və yarımqrupları türkologiyada ilk dəfə müəyyənləşdirilmiş, onomalogiyanın elmi-nəzəri əsasları hazırlanmışdır. Cəsarətlə demək olar ki, bədii əsərlərdəki antroponimlər, toponimlər, onların üslubi xüsusiyyətləri, bədii ədəbiyyatda xüsusi adların komik təbiəti, etnik adlar, ad yaradıcılığı, poetik onomastikanın ilk tədqiqatçısı AMEA-nın müxbir üzvü Afad Qurbanovdur. Azərbaycanşünaslıqda onomastik tədqiqatların geniş şəkildə aparılması türkologiyanın uğurlarındandır. Onomastik vahidlərin hər biri xüsusi sosial işarədir. Onları öyrənmək, tədqiq etməklə xalqın tarixi, dili və çoxsahəli həyatının bir sıra mühüm məsələlərini aşkara çıxarmaq, dilin lüğət tərkibinin bütövlükdə xarakteristikasını vermək, dil tarixi, dialektologiya və üslubiyyata dair mühüm qanunauyğunluqları aşkara çıxarmaq, tarix, etnoqrafiya, sosiologiya, coğrafiya və başqa elmlərin bəzi mühüm problemlərinin açılmasına yeni istiqamət verməsi müəyyənləşdirilir. Bununla yanaşı, onomastik vahidləri düzgün təhlil etmək, onları qorumaq, nəsildən-nəslə ötürmək ümumi mədəniyyətin ayrılmaz tərkib hissəsi kimi böyük əhəmiyyət kəsb edir. Bu baxımdan Azərbaycan dili onomalogiyasının müstəqil bir nəzəri dilçilik şöbəsi kimi formalaşması bilavasitə professor Afad Qurbanovun fəaliyyəti ilə bağlıdır. Alimin bu sahə ilə bağlı ən böyük uğuru "Azərbaycan dilinin onomalogiyası" adlı monoqrafiyasıdır. Bu əsər Azərbaycan dilçiliyində və ümumiyyətlə, türkoloji dilçilikdə ilk dəfə olaraq xüsusi adların hərtərəfli linqvistik təhlilinə həsr olunmuşdur.

A.Qurbanov şəxs adları, ad və insan anlayışı, eləcə də onların sistemini ümumi dilçilik baxımından təhlil etmiş, əsl şəxs adlarının yaranma səbəbini, onların leksik-semantik qruplarını müəyyənləşdirmişdir. Professor A.Qurbanov bu əsərində fundamental onomastik təlimin nəzəri əsaslarını yaratmış, Azərbaycan dilində və bütövlükdə dünya dillərində xüsusi adların qruplarını müəyyənləşdirməyə nail olmuşdur. Qeyd edək ki, alimin "Azərbaycan dilinin onomalogiyası" kitabı Dövlət mükafatına layiq görülmüşdür. Akademik Məmmədağa Şirəliyev yazırdı ki, Afad Qurbanov bu əsəri ilə Azərbaycan onomastika məktəbinin əsasını qoymuşdur. Azərbaycan Dövlət Pedaqoji Universitetində "Onomastik problem laboratoriyası"nın yaradılması, Azərbaycan onomastikası problemlərinə həsr edilmiş respublika konfranslarının mütəmadi olaraq keçirilməsi bilavasitə Afad Qurbanovun gərgin əməyi sayəsində baş tutmuşdur. Məhz Afad Qurbanovun rəhbərliyi ilə onomalogiyanın problemlərinə dair müxtəlif mövzularda onlarca namizədlik və doktorluq dissertasiyası müdafiə edilmişdir. Onomastika sahəsində məktəb yaratmış görkəmli dilçi alimin elmi yaradıcılığında təkcə Şimali Azərbaycandakı onomastik vahidlər deyil, həm də Cənubi Azərbaycan və Qərbi Azərbaycandakı, eləcə də Gürcüstan və Dağıstandakı türkmənşəli onomastik vahidlər, xüsusilə toponimlər tədqiqat obyektinə çevrilmişdir.

AMEA-nın müxbir üzvü A.Qurbanovun onomastika sahəsindəki fəaliyyəti respublikamızda və ölkəmizdən kənarda yüksək qiymətləndirilmişdir. 1989-cu ildə İstanbulda nəşr edilmiş "Türk dünyası araşdırmaları" adlı sanballı elmi toplunun bir neçə səhifəsi məhz bu dəyərli əsərin elmi təhlilinə həsr olunmuşdur.

Azərbaycan dilçiliyində bədii əsərlərin onomastikasının sistemli şəkildə tədqiq edilməsində A.Qurbanovun "Poetikonomastika" kitabının böyük rolu və əhəmiyyəti danılmazdır. A.Qurbanov "Müasir Azərbaycan ədəbi dili", "Azərbaycan onomastikası", "Azərbaycan onomalogiyası məsələləri" kitablarında poetik onomastikanın ayrı-ayrı sahələrinin tədqiq edilməsinin dilçiliyimiz üçün təxirəsalınmaz vəzifə olduğunu xüsusi olaraq vurğulamışdır. Müəllif "Poetikonomastika" kitabında bu problemləri sistemli şəkildə araşdırmışdır. Kitabda bədii ədəbiyyatda xüsusi adların komik təbiəti, etnik adlar, onomastik vahidlərin obrazlılığı, bədii əsərlərdə xüsusi ad yaradıcılığı kimi məsələlərdən bəhs edilmiş, onomastik vahidlərin üslubi imkanları, şifahi ədəbiyyatda onomastik vahidlərin üslubi xüsusiyyətləri aydınlaşdırılmışdır. Yazıçının onomastik vahidlərdən əsərin süjetinə, quruluşuna, ideya və məzmununa uyğun şəkildə istifadə etməsinin istiqamətləri müəyyənləşdirilmişdir. Müəllif göstərmişdir ki, yazıçılar real adlardan satirik və yumoristik ifadə vasitəsi kimi obrazlılıq, yüksək bədii keyfiyyət yaratmaq üçün istifadə edirlər.

Ümumu dilçiliyin problemlərinin tədqiqində Afad Qurbanovun öz dəst-xətti, xüsusi çəkisi və konsepsiyası vardır. Bu ondan irəli gəlir ki, A. Qurbanov bir müəllim kimi 20 ilə qədər bu fənni tədris etmiş, ümumi dilçiliyin konsepsiyalarına dərindən bələd olmuşdur. 1976-cı ildə nəşr olunan "Dilçiliyin sistemi" əsərində dilçilik elmi, dilçiliyin sahələri, dilçiliyin şöbələri və onların aktual problemləri araşdırılır. Xüsusilə dilçilik elminin obyekti, nəzəri və tətbiqi dilçilik, ümumi dilçiliyin aktual problemləri konseptual səviyyədə tədqiq edilmişdir. Aydın şərh, zəngin dil faktları, təhlil və ümumiləşdirmələr baxımından orijinal olan bu dərslikdən tələbələr uzun illərdir dəyərli mənbə kimi faydalanır, ədəbi dilimizin formalaşma tarixi, səs sistemi, orfoepiyası, leksika və frazeologiyası, semasiologiyası barədə biliklərə yiyələnirlər. Akademik Ağamusa Axundov yazırdı ki, Azərbaycan dilçiliyinin parlaq siması A.Qurbanovun ümumi dilçiliklə bağlı tədqiqatları bütövlükdə dilçiliyimizin uğurudur. Bununla yanaşı, türk dilləri qrupunun dəqiqləşdirilməsində yeni mülahizə və konsepsiyalar irəli sürülmüşdür. 1977-ci ildə çap olunmuş "Ümumi dilçilik" dərsliyi Azərbaycan pedaqoji təhsil müəssisələri üçün milli zəmində yazılmış ilk dərslik kimi çox böyük əhəmiyyətə malikdir.

Ali məktəblərin filologiya fakültələrində tədris olunan "Ümumi dilçilik" fənni filoloq kadrların hazırlıq səviyyəsinin yüksəldilməsində mühüm rol oynayır. Geniş elmi-nəzəri ümumiləşdirmələr aparma, dilçiliyin dinamik inkişafı prosesinə dialektik və obyektiv münasibət bəsləmə, şərh olunan hər bir dil hadisəsini konkret faktlarla əsaslandırma, orijinal fikirləri qətiyyətlə müdafiə etmə, tarixiliklə müasirliyi vəhdətdə götürmə və s. keyfiyyətlər bütün əsər boyu gözlənilmişdir.

A.Qurbanov dünya dilçiliyinin ən vacib problemlərindən biri olan dil ailələrinin dəqiq müəyyənləşdirilməsi məsələsinə aydınlıq gətirmək üçün XVIII əsrdən sonra meydana gəlmiş tədqiqatları nəzərdən keçirərək, Altay dillər ailəsini altı qrupa - 1. Türk dilləri (23 dil), 2. Monqol dilləri qrupu (3 dil), 3. Tunqus dilləri qrupu (3 dil), 4. Mancur dilləri qrupu (5 dil), 5. Koreya dili (1 dil), 6. Yapon dili (1 dil) ayırmışdır. Müəllif doğru olaraq Altay dilləri ailəsinin tərkibində olan dillərin 64 faizini türk dillərinin təşkil etdiyini xüsusi qeyd etmişdir. A.Qurbanov Altay dilləri ailəsində 23



türk dilinin olduğunu qeyd edərək, tarixi inkişaf və linqvistik əlamətlər əsasında beş yarımqrupa - oğuz dilləri, qıpçaq dilləri, bulqar dilləri, qarluq dilləri, tukyuy dilləri yarımqruplarına bölərək təsnif etmişdir. Azərbaycan ədəbi dilinin materialları əsasında funksional üslubların növləri və adları (ədəbi danışıq üslubu, bədii üslub, elmi üslub, rəsmi üslub, publisistik üslub, epistolyar üslub) dəqiqləşdirilmiş və fonetik, lüğəvi, qrammatik və s. cəhətlərinə görə bir-birindən fərqləndirilmişdir. Bu, əslində, Afad Qurbanovun ilk kitabdan ümumi dilçilik sahəsində öz dəst-xətti, konsepsiyası olduğunun təsdiqi idi. Dilin əmələ gəlməsi nə qədər çətin və mürəkkəb olsa da, bunu dilçiliyin problemləri sırasından xaricdə düşünmək olmaz. Çünki dil dilçilik elminin obyektidir, dilin əmələ gəlməsinin tam həqiqi və elmi şərhinin məhz müvafiq elmlərin qarşılıqlı tədqiqatları əsasında mümkün olması onun yaradıcılığında xüsusi qeyd edilir. Bütün bunlar göstərir ki, akademik Afad Qurbanov Azərbaycanda ümumi dilçilik problemlərinə dair fundamental araşdırmalar aparan ilk alimlərdən biridir. Dərslikdə geniş yer verilən bölgü və təsnifatlar da yenidən işlənmişdir. Müəllif ümumi dilçilik problemlərinə və dünya dillərinin təsnifatına dair yeni fikirlər söyləmişdir. Xüsusən Altay dilləri ailəsi ilə bağlı fikirlər türkoloji dilçilikdə yeni və orijinaldır.

Afad Qurbanovun dünya dilçiliyinə və türk dillərinin mövqeyinə dair yeni elmi konsepsiyaları Azərbaycan dilçiliyi ilə yanaşı, dünya və türkoloji dilçiliyin inkişafına da öz töhfəsini vermişdir. Alimin dilçiliyin müxtəlif sahələri ilə bağlı 10-a yaxın monoqrafiyası, dərslik və dərs vəsaiti nəşr olunmuşdur.

Afad Qurbanovun çoxcəhətli yaradıcılığında bədii əsərlərin dilinin tədqiqi qırmızı bir xətt kimi keçir. O, elmi yaradıcılığa başladığı ilk günlərdən böyük şairimiz Səməd Vurğunun dramaturgiyasının, eləcə də bir çox klassiklərin poeziya nümunələrinin dilini tədqiq etmiş və onların sənətkarlıq xüsusiyyətlərini incəliyinə qədər müəyyənləşdirmişdir. Alimin "Bədii dilin linqvistik təhlili" əsəri dil hadisələrinin təhlilinə, onun elmi nəticələrinə əsaslanır.

Afad Qurbanovun yaradıcılığında dialektologiya məsələləri də müəyyən araşdırma predmeti kimi diqqəti cəlb etmişdir. O, dialektoloji axtarışlarda öz sözünü demiş, bu sahədə düzgün araşdırmanın yeni istiqamətini müəyyənləşdirmişdir. Alimin 2001-ci ildə çap olunmuş "Cücəkənd şivəsi" və 2007-ci ildə işıq üzü görmüş "Qərbi Azərbaycanın Cucikənd şivəsi" kitablarında Cucikənd şivəsi təhlil olunaraq onun səciyyəvi xüsusiyyətləri açıqlanmış, bu şivəyə məxsus özəl dialektizmlərdən nümunələr verilmiş, həmin şivənin fonetik dil xüsusiyyətləri, leksik səciyyəsi aydınlaşdırılmışdır. A.Qurbanov nitq mədəniyyəti məsələlərindən də ayrıca olaraq bəhs etmiş və dilin ictimai funksiyasını, nitqin fərdi xüsusiyyətlərinin spesifikasını müəyyənləşdirmişdir. Görkəmli alim düzgün nitqdən danışarkən onun fonetik, orfoepik, leksik, onomastik, semantik, frazeoloji, dervitoloji, morfoloji, sintaktik və üslub normalarının hər birinin fərdi xüsusiyyətlərini təhlil etmişdir.

AMEA-nın müxbir üzvü Afad Qurbanovun elmi yaradıcılığında müasir dilçilik problemləri ilə yanaşı, Azərbaycan dilinin tarixi ilə bağlı yazılar da xüsusi maraq doğurur. Dilimizin ulu türk - ilk türk dili bünövrəsi Azərbaycan ədəbi dilinin formalaşması və inkişafı, sabitləşmə dövrü, ədəbi dil tarixi, konkret dil faktları əsasında araşdırılmışdır. A.Qurbanovun altayşünas, türkoloq kimi fəaliyyəti sovet dövründə əhatəliyi ilə diqqəti cəlb edir. O, 1984-1989-cu illərdə SSRİ Akademiyasının Sovet Türkoloqları Komitəsinin üzvü, Türk Onomastika Bölməsi bürosunun üzvü, Tədris Metodiki Bölməsinin rəhbəri, sonradan həmin komitənin sədr müavini vəzifələrində çalışmışdır. Həmin dövrdə məşhur akademiklər: A.Kononov, E.Tenişev, A.Şerbak və digərlərinin sırasında A.Qurbanov da türk dünyasında tanınmış türkoloq kimi qəbul olunurdu. Türkoloji dilçiliyin inkişafındakı xidmətlərinə görə A.Qurbanov Türk Dil Qurumunun fəxri üzvlüyünə ilk azərbaycanlı kimi qəbul edilmişdir. Eyni zamanda o, Azərbaycan Milli Elmlər Akademiyasının tədbirlərində fəal iştirak edirdi. Afad müəllim AMEA-nın Terminologiya Komitəsinin, Dövlət dili haqqında qanun layihəsinin hazırlanması ilə bağlı Komissiyanın, Adlar və Soyadlar üzrə Xüsusi Komissiyanın, İctimai elmlər üzrə Əlaqələndirmə Şurasının, Nəsimi adına Dilçilik İnstitutunun Elmi və Müdafiə şuralarının üzvü olmuşdur.

Görkəmli alim Beynəlxalq Pedaqoji Elmlər, Rusiya Pedaqoji və Sosial Elmlər, Nyu York akademiyalarının akademiki, Türk Dil Qurumunun fəxri üzvü, Türk Dili Məclisinin həqiqi üzvü, Belçika Onomastika Cəmiyyətinin, Finlandiyanın Fin-Uqor Cəmiyyətinin həqiqi və fəxri üzvü olmuşdur.

Görkəmli azərbaycanşünas alim, dünya şöhrətli türkoloq Afad Qurbanov Azərbaycan dilçiliyi sahəsində səmərəli və dəyərli araşdırmalarını ömrünün sonuna qədər (2009) davam etdirmiş, beynəlxalq elmi məclislərdə, konfrans və simpoziumlarda yaxından iştirak etmişdir. O, dünyanın bir çox ölkələrində keçirilmiş dil qurultaylarında, konfrans, simpozium və konqreslərdə iştirak etmiş, həmişə doğma vətənimizi təmsil etmişdir. Xüsusilə Amerika, Türkiyə, Rusiya, İran və başqa xarici ölkələrdə elmi səfərlərdə olmuş, Türkiyənin Ankara, İstanbul, İzmir, Adana, Qeysəriyyə, Konya, Trabzon və başqa şəhərlərində uluslararası toplantılarda türkoloji dilçiliyin aktual problemlərinə dair dərin məzmunlu məruzələr etmişdir. Alim 1992-ci ildə Azərbaycan dövlət nümayəndə heyətinin üzvü kimi Yunanıstanda olmuş və Afinada keçirilən Beynəlxalq konqresdə elmi məruzə ilə çıxış etmişdir.

AMEA-nın müxbir üzvü Afad Qurbanov çoxşaxəli və ardıcıl elmi-təşkilati fəaliyyətində yüksək ixtisaslı gənc kadrların hazırlanmasını daim diqqət mərkəzində saxlayırdı. Alimin səmərəli elmi-pedaqoji fəaliyyəti sayəsində püxtələşən elmi pedaqoji kadrlar hazırda nəinki Azərbaycanın, eləcə də Türkiyənin, Almaniyanın, Gürcüstanın, Türkmənistanın, Qazaxıstanın təhsil və elm ocaqlarında uğurla çalışırlar. A.Qurbanov 50-dən çox elmlər namizədi və doktorunun elmi rəhbəri olmuşdur. Azərbaycanda dilçilik elminin inkişafında və yüksəkixtisaslı elmi kadrların hazırlanmasında xidmətlərinə görə A.Qurbanov dəfələrlə dövlət başçısının, respublika Ali Sovetinin, Azərbaycan Elmlər Akademiyası və Təhsil Nazirliyinin fəxri fərmanlarına, 1981-ci ildə isə Azərbaycan SSR-in əməkdar elm xadimi fəxri adına layiq görülmüşdür.

Görkəmli şəxsiyyətlər, böyük alim və mütəfəkkirlər elə insanlardır ki, onlar aparıcı qüvvə kimi daim cəmiyyətin, ictimai həyatın problemləri ilə yaşayır, xalqının, vətəninin rifahını əsas götürərək bu problemlərin həllində yaxından iştirak etməyə çalışırlar. Əsl vətəndaş, alim xalqın arzu və istəklərinin həyata keçməsində heç vaxt əməyini əsirgəmir, var qüvvəsi ilə işin həllinə xidmət göstərir. Bu cəhətlər məhz dilçilik elmimizin görkəmli siması Afad Qurbanovun başlıca keyfiyyətlərindən idi. Onun mənalı həyat yolu əsl ziyalılıq təcəssümüdür, öz biliyi, elmiliyi, alicənablığı, təmənnasız qayğısı, vətəninə xidmət göstərməsi ilə yaddaşlara həkk olmuşdur. Adı Azərbaycan dilçiliyinin korifeyləri ilə bir sırada çəkilən, türk və Avropa dilçiləri tərəfindən orijinal konsepsiyalar müəllifi kimi rəğbətlə qəbul edilən, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü, əməkdar elm xadimi, Dövlət mükafatı laureatı, filologiya elmləri doktoru, professor Afad Qurbanov ömrünün 50 ilini Azərbaycan təhsilinə, elminə həsr etmiş, ana dilimizin inkişafına, ümumiyyətlə dilçiliyə, əlifbamızın təkmilləşdirilməsinə dair sanballı, mükəmməl əsərlərlə töhfələr vermiş, alimliklə insanlığın vəhdətini özündə birləşdirən görkəmli türkoloq alimlərimizdən biri olmuşdur. Dilçilik elmimizin bu parlaq simasının işıqlı xatirəsi onu tanıyanların, həmkarları və yetirmələrinin qəlbində əbədi yaşayacaqdır.

*Möhsün NAĞISOYLU,*
*AMEA-nın Nəsimi adına Dilçilik İnstitutunun direktoru, akademik*

# Qədim və müasir

## Bu, Naxçıvandır - Nəqşi-cahandır...



Əvvəli 1-ci səh.

"Qeyri-maddi mədəni irsin qorunmasına dair" UNESCO Konvensiyasının tövsiyələrinə əsasən, beynəlxalq təcrübədən bəhrələnərək hazırlanmış "Şəhər (rayon) mədəniyyət mərkəzlərinin yaradılması" layihəsi isə artıq bir sıra bölgələrdə həyata keçirilərək müsbət nəticəsini vermişdir.

İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qərarın qəbulu da təsadüfi deyildi. Beş min il bundan əvvəl Naxçıvan şəhər mədəniyyətinin formalaşması Azərbaycanın bu qədim torpağında sivilizasiyanın inkişafının ən mühüm göstəricisi hesab olunur.

Naxçıvan Azərbaycanın dövlətçilik tarixinə mühüm töhfələr verib. Azərbaycan türkləri min illər boyu burada həyat sürüb, böyük dövlətçilik ənənələrinin əsasını qoyublar. Onuncu yüzillikdə Naxçıvan şahlığı, XII əsrdə Azərbaycan Atabəylər dövləti yaranıb. XVIII-XIX əsrlərdə isə Naxçıvan xanlığı, XX əsrin əvvəlində Araz-Türk Respublikası fəaliyyət göstərib.

Ümummilli lider Heydər Əliyev deyib: "Naxçıvan Azərbaycan xalqının qədim tarixini əks etdirən müqəddəs bir torpaqdır. Naxçıvan Azərbaycan xalqının tarixini əks etdirən abidələri özündə cəmləşdirən bir diyardır".

Bəli, Naxçıvan antik və orta əsrlər dövrünə aid türk-islam mədəniyyəti nümunələri və tarixi abidələrlə - qədim yaşayış yerləri, şəhərlər, möhtəşəm qalalar, xatirə memarlığının ən mükəmməl nümunələri olan türbələr ilə çox zəngindir. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Naxçıvan Muxtar Respublikası ərazisindəki tarix və mədəniyyət abidələrinin qorunması və pasportlaşdırılması işinin təşkili haqqında" 2005-ci il 6 dekabr tarixli sərəncamına əsasən, buradakı 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə qeydə alınaraq pasportlaşdırılıb.

İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərini özündə yaşadan Naxçıvan Muxtar Respublikasında milli və mənəvi dəyərlərə hörmətlə yanaşılır. Eyni zamanda dini dəyərlər və adət-ənənələr qorunub saxlanılır, abidələr bərpa olunur.

Prezident İlham Əliyevin Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar Təşkilat Komitəsinin yaradılması haqqında sərəncamında göstərilirdi ki, İslam Əməkdaşlıq Təşkilatına üzv dövlətlərin mədəniyyət nazirlərinin VI konfransında Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunmasına dair qəbul etdiyi qərar sivilizasiyalararası dialoqa mühüm töhfələr verən Azərbaycanın bu qədim diyarındakı zəngin mədəni-mənəvi irsə yüksək qiymətin təzahürüdür. Tarixən Yaxın və Orta Şərqin ən gözəl şəhərlərindən biri kimi, Naxçıvan böyük keçmişi ərzində İslam mədəniyyətinin çoxəsrlik nailiyyətlərinin layiqincə qorunub yaşadılmasında özünəməxsus rol oynayıb.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan edilməsi ilə əlaqədar yaradılmış Təşkilat Komitəsinin sədri Vasif Talıbov, İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri, Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev və TÜRKSOY-un Baş katibinin müavini Fırat Purtaşın və digər yüksək vəzifəli qonaqların da iştiraki ilə "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"-in bağlanış tədbiri keçirilib.

Naxçıvan Muxtar Respublikasının mədəniyyət naziri Natəvan Qədimova deyib ki, ümummilli lider Heydər Əliyevin milli-mənəvi dəyərlərimizə, bütövlükdə mədəniyyətimizə göstərdiyi qayğı və müəyyənləşdirdiyi siyasi xətt bu gün Azərbaycanda və onun Naxçıvan Muxtar Respublikasında uğurla davam etdirilir. İl ərzində bir sıra layihələr həyata keçirilib, o cümlədən Naxçıvandakı türk-islam mədəniyyəti abidələrindən Möminə xatın, Yusif Küseyr oğlu, Gülüstan türbələrinin və Qarabağlar Türbə Kompleksinin ISESCO-nun siyahısına daxil edilməsi ilə bağlı müvafiq sənədlər hazırlanaraq aidiyyəti orqanlara təqdim edilib.

Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbovun tədbirdə səsləndirdiyi fikirlər həyata keçirilən layihələrin mühüm əhəmiyyət daşıdığını təsdiqlədi. Qeyd olundu ki, türk-islam mədəniyyəti abidələri tədqiq olunmuş, Naxçıvan İslam mədəniyyətinin əsas inkişaf mərkəzi kimi tanınmışdır.

İslam Təhsil, Elm və Mədəniyyət Təşkilatının Baş direktorunun müavini Amina Əl-Həcri Naxçıvan şəhərinin İslam Mədəniyyətinin Paytaxtı elan edilməsi ilə bağlı keçirilən tədbirlərdən söz açaraq deyib ki, Naxçıvan şəhərinin 2018-ci il üçün İslam mədəniyyətinin paytaxtı elan olunması ilə bağlı təmsil olunduğu beynəlxalq qurum tərəfindən VII Beynəlxalq Klassik Musiqi Festivalı, ISESCO-nun Yaşıl Şəhər Strategiyasının həyata keçirilməsi ilə bağlı Azərbaycan, Qazaxıstan, Özbəkistan, Tacikistan, Türkiyə və Misirdən olan ekspertlərin iştirakı ilə regional toplantı, ekstremizm və islamafobiyaya qarşı mübarizə mexanizmi kimi vasitəçilik və dialoq mədəniyyəti üzrə milli seminar və digər tədbirlər keçirilmişdir.

Təşkilat Komitəsi tərəfindən ötən dövrdə təşkil edilən ən yaddaqalan tədbirlərin siyahısına o da əlavə olunub ki, 2018-ci ilin 26 noyabr -1 dekabr tarixlərində Mavriki Respublikasının paytaxtı Port Luis şəhərində UNESCO-nun Qeyri-maddi mədəni irsin qorunması üzrə Hökumətlərarası Komitəsinin növbəti 13-cü sessiyasında qəbul edilən qərarla "Yallı ("Köçəri", "Tənzərə"), Naxçıvanın ənənəvi qrup rəqsləri" UNESCO-nun Təcili Qorunma Siyahısına daxil olunub. Bununla da Şərur, xüsusən də "Köçəri" yallısını öz adına çıxmağa çalışan Ermənistanın təxribat xarakterli cəhdlərinin qarşısı alınıb. "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"-in bağlanışı münasibətilə keçirilən konsertdə xalq artisti Alim Qasımovla əməkdar artist Fərqanə Qasımovanın xalq mahnıları və muğamlarımız, eləcə də "Şərur" Xalq Yallı Ansamblının ifasında təqdim olunan "Köçəri" və "Tənzərə" yallıları da alqışlarla qarşılanıb.

Azərbaycan Respublikasının mədəniyyət naziri Əbülfəs Qarayev konsertdə təqdim olunan bütün yaradıcılıq nümunələrinin UNESCO-nun siyahısına daxil edildiyini xatırladıb: "Muğam ifaçılığı, tar, kamança və yallı bir daha təsdiq etdi ki, Azərbaycan xalqının yaratdığı incəsənət nümunələri bütün bəşəriyyətə məxsusdur. Bütün bunların bir arada "Naxçıvan İslam Mədəniyyətinin Paytaxtı-2018"-in bağlanış tədbirində ifa olunması isə mühüm əhəmiyyətə malikdir. Çünki Naxçıvanda tarixin və mədəni irsin qorunub-saxlanılması və təbliği sahəsində kompleks işlər görülür".

Təbii ki, Naxçıvanın İslam Mədəniyyət Paytaxtı olması bir illə məhdudlaşmır. Naxçıvan İslam sivilizasiyanın tarixi mədəni mərkəzlərindən olub və bundan sonra da bu adı əbədi qoruyub saxlayacaqdır.

*Məhəmməd NƏRİMANOĞLU,*
*"Azərbaycan"*



# Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi *açıq tender elan edir*

**Tender 3 LOT üzrə keçirilir:**

**LOT-1.** Nəşr məmulatlarının xarici ölkələrdə çap olunmasının satın alınması.

**LOT-2.** Xarici ölkələrdə çap olunacaq kitab və məqalələrin xarici müəlliflərinə ödəniləcək qonorarların, onların tərcümə, korrektə və redaktə xərclərinin satın alınması.

**LOT-3.** Xarici ölkələrdə keçiriləcək beynəlxalq konfransların və dövlət səviyyəli tədbirlərin təşkilinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, AZ 1005, M.İbrahimov küçəsi, 8**
**Əlaqələndirici şəxs: Sadıxov İsmayıl. Tel.: 050-230-01-22**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**M/H: AZ41NABZ01360100000003003944**
**Strateji Araşdırmalar Mərkəzi. VÖEN - 1301595701**
**İBAN: AZ75CTRE00000000000005478301**
**Büdcə Səviyyəsinin kodu**
**Fond 7; Büdcə Təsnifatının kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq xidmət üzrə lisenziyası;*
- *iddiaçının tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 24 yanvar 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 21 fevral 2019-cu il saat 17:00-dək Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri 22 fevral 2019-cu il tarixdə saat 14:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Azərbaycan Respublikasının Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi *açıq tender elan edir*

**Tender 4 LOT üzrə keçirilir:**

**LOT-1.** Nəşr məmulatlarının respublikada çap olunmasının satın alınması.

**LOT-2.** Çap olunacaq nəşr məmulatlarının dizayn-tərtibat işlərinin satın alınması.

**LOT-3.** Çap olunacaq nəşrlərin tərcüməsinin, redaktə-korrektəsini və müəlliflərə kitab və məqalələrin sifariş olunmasının satın alınması.

**LOT-4.** Respublikada keçiriləcək beynəlxalq konfransların və dövlət səviyyəli tədbirlərin təşkilinin satın alınması.

Tender iştirakçılarına təklif edilir ki, təkliflərini möhürlənmiş, imzalanmış ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər. Tender iştirakçıları lazımi texniki və maliyyə imkanlarına malik olmalıdırlar. Tenderdə iştirak etmək istəyənlər 100 manat məbləğində iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu ala bilərlər.

**Ünvan: Bakı şəhəri, AZ 1005, M.İbrahimov küçəsi, 8**
**Əlaqələndirici şəxs: Sadıxov İsmayıl. Tel.: 050-230-01-22**
**Dövlət Xəzinədarlıq Agentliyi**
**Kodu: 210005**
**VÖEN: 1401555071**
**SWIFT: CTREAZ22**
**M/H: AZ41NABZ01360100000003003944**
**Strateji Araşdırmalar Mərkəzi. VÖEN - 1301595701**
**İBAN: AZ75CTRE00000000000005478301**
**Büdcə Səviyyəsinin kodu**
**Fond 7; Büdcə Təsnifatının kodu: 142340**
**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün ərizə;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 60 bank günü qüvvədə olmalıdır);*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir il ərzində maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri;*
- *iddiaçının müvafiq xidmət üzrə lisenziyası;*
- *iddiaçının tender təklifi Azərbaycan dilində tərtib olunmalıdır.*

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank zəmanəti istisna olmaqla) 24 yanvar 2019-cu il saat 17:00-dək, tender təklifi və bank zəmanətini isə möhürlənmiş ikiqat zərfdə 21 fevral 2019-cu il saat 17:00-dək Tender komissiyasına təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklif zərfləri 22 fevral 2019-cu il tarixdə saat 11:00-da yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

# Beynəlxalq aləm

## Ötən il 4,6 min miqrant həlak olmuş, yaxud itkin düşmüşdür

2018-ci ildə 4600-ə yaxın miqrant həlak olmuş, yaxud itkin düşmüşdür. Bu barədə Beynəlxalq Miqrasiya Təşkilatı məlumat verir.

Təşkilatın rəsmi nümayəndəsi Leonard Doyl Cenevrədə keçirilmiş brifinqdə bildirmişdir ki, əldə olunan məlumata görə, azı 4592 miqrant yolda həlak olmuş, yaxud itkin düşmüşdür. Doylun dediyinə görə, qurbanların sayının hesablanması hələ başa çatmamışdır. Belə ki, hələ bir neçə mənbədən məlumatlar daxil olmamışdır.



Qurbanların yarıdan çoxu Afrikadan Avropaya Aralıq dənizi ilə miqrasiya marşrutunun payına düşür (2297). Şimali Afrikada 567, Afrikanın Saxaranın cənubunda yerləşən ölkələrində 559, Meksikanın ABŞ-la sərhədində 383, Afrika Buynuzu regionunda 274 nəfər həlak olmuş, yaxud itkin düşmüşdür. Bundan sonra Yaxın Şərq (121), Avropa (109), Mərkəzi Amerika (77), Cənub-Şərqi Asiya (68) və Mərkəzi Asiya (52) gəlir. Digər regionlarda qurbanların sayı azdır. Karib hövzəsində 34 nəfər, Cənubi Amerikada 27 nəfər həlak olmuş, yaxud itkin düşmüşdür.

Ötən il Avropaya Aralıq dənizi ilə 116 mindən çox miqrant gəlmişdir. Ardıcıl olaraq beşinci ildir ki, dünyada həlak olmuş, yaxud itkin düşmüş miqrantların sayı 3 min nəfərdən çoxdur.

## Tramp: "Qeyri-leqal miqrasiyadan bütün amerikalılar əziyyət çəkir"

ABŞ Prezidenti Donald Tramp hökumətdə baş verən böhranla bağlı Amerika xalqına müraciət etmişdir. Meksika ilə sərhəddə yaranan vəziyyətdən danışan Tramp söhbətin həm təhlükəsizliklə bağlı problemlərdən, həm də humanitar böhrandan getdiyini vurğulamışdır. Onun dediyinə görə, bütün amerikalılar qeyri-leqal miqrasiyadan əziyyət çəkir.



Tramp qeyd etmişdir ki, miqrasiya ilə əlaqəli cinayətkarlığa görə minlərlə adam, həm ABŞ sakinləri və həm də qaçqınlar həlak ola bilər.

Prezident, həmçinin ümidvar olduğunu bildirmişdir ki, Konqresin liderləri ilə görüşündən sonra hökumət işini davam etdirəcək. Onun fikrincə, vəziyyətin yeganə çıxış yolu demokratları sərhədləri "müdafiə edəcək" büdcənin qəbul olunmasına inandırmaqdır. Tramp əlavə etmişdir ki, güzəştlərə getməyə hazırdır və sərhəddə inşa olunacaq divarın betondan olmasına təkid etmir, hasarın poladdan tikilməsinə də razıdır.

## Malayziyanın yeni kralının kimliyi bəlli oldu

Pahanq ştatının sultanı yanvarın 24-də Malayziyanın yeni kralı seçiləcək. Bu barədə "The Straits Times" qəzeti xəbər verir.



Əvvəlki hökmdar V Məhəmməd ölkə tarixində ilk dəfə taxt-tacdan imtina etmişdir.

Qəzetin xəbərinə görə, 88 yaşlı sultan Əhməd Şah səhhəti ilə bağlı taxt-tacdan imtina etməyi planlaşdırır. Sultanlığa onun 59 yaşlı oğlu Tenqha Abdulla başçılıq edəcək.

Malayziya kralı Milli hökmdarlar şurası tərəfindən 5 il müddətinə seçilir.

V Məhəmməd 2016-cı ildə kral olmuşdur və 2021-ci ilədək hökmdarlıq etməli idi. Bəzi mənbələrin məlumatına görə, onun taxt-tacdan imtina etməsinə sabiq "Moskva gözəli" Oksana Voyevodina ilə bağlanmış nikah səbəb olmuşdur. Bu nikahdan digər sultanlar narazı qalmışlar.

## Quterriş BMT TŞ-ni Yəmənə 75 müşahidəçi göndərməyə çağırdı

BMT-nin Baş katibi Antoniu Quterriş Hodeyda liman şəhərində barışıq haqqında sazişin reallaşdırılmasının monitorinqi üçün Təhlükəsizlik Şurasını Yəmənə 75 beynəlxalq müşahidəçi göndərməyə çağırmışdır. Bu barədə "Anadolu" agentliyi xəbər verir.

Xatırladaq ki, ötən ilin dekabrında İsveçin paytaxtı Stokholmda Hodeydada atəşkəs rejimi barədə "Ənsər Allah" (hövsilər) hərəkatının nümayəndələri ilə Yəmən hökuməti arasında razılıq əldə olunmuşdur.

Bundan əlavə, BMT TŞ Hodeyda limanında təşkilatın müşahidəçilərinin yerləşdirilməsinə səs vermişdir.

Hazırda təhlükəsizliklə bağlı problemlərə görə, Hodeydada BMT-nin 16 müşahidəçidən ibarət kiçik qrup fəaliyyət göstərir.

Yəməndə 2014-cü ildən bəri "Ənsər Allah" hərəkatının qiyamçıları və ölkənin devrilmiş prezidenti Əli Abdulla Salehin tərəfdarları ilə Prezident Əbd Rəbbo Mənsur Hadiyə sadiq hökumət qoşunları arasında silahlı münaqişə davam edir.

## ABŞ Venesuelaya qarşı sanksiyaları genişləndirdi

ABŞ hökuməti Venesuelaya qarşı sanksiyaları genişləndirmişdir. Siyahıya 7 fiziki şəxsin və 23 təşkilatın adı daxil edilmişdir. Bu barədə Maliyyə Nazirliyinin saytında xəbər verilir.



Məlumata görə, adı "qara siyahı"ya düşənlər arasında ölkənin ən iri telekanallarından biri - "Globovision" var. Sanksiyalar, həmçinin Venesuelanın keçmiş xəzinədarı Klaudiya Patrisiya Diasa qarşı tətbiq olunmuşdur.

ABŞ Maliyyə Nazirliyinin nümayəndələri bildirirlər ki, adıçəkilən şəxslər və təşkilatlar korrupsiya sxemlərində iştirak etmiş, yaxud buna cəlb olunmuşlar.

Nazirliyin açıqladığı Baş lisenziyaya əsasən, amerikalı sərmayəçilər 2020-ci il yanvarın 8-dək "Globovision"un aktivləri ilə bütün sövdələşmələri qapatmalıdırlar.

Məlum olduğu kimi, Venesuela sanksiyalar fonunda valyuta bazarında ABŞ dollarının satışından imtina etmişdir. Onun əvəzinə ölkə avrodan istifadə edəcək.

Dünya Valyuta Fondunun proqnozuna görə, cari ildə Venesuelada inflyasiya səviyyəsi 10 milyon faizə çata bilər.

# B İ L D İ R İ Ş

"Bakı Metropoliteni" QSC tərəfindən 28.11.2018-ci il tarixində keçirilən LOT 1- Yük və minik avtomobil təkərlərinin və LOT 2- Avtomobil, maşın və mexanizmlər üçün ehtiyat hissələrinin satın alınmasına dair "Açıq tender" üsulu ilə keçirilən müsabiqədə LOT 1 üzrə "GRAND MOTORS" MMC və LOT 2 üzrə "Nəqliyyat Təmir-təchizat" MMC tərəfindən təqdim olunmuş təkliflər qəbul olunmuşdur. Təqdim olunan LOT-1 üzrə ƏDV daxil 449178.80 (dörd yüz qırx doqquz min yüz yetmiş səkkiz manat 80 qəpik) manat və LOT 2 üzrə ƏDV daxil 1 626 492.34 (bir milyon altı yüz iyirmi altı min dörd yüz doxsan iki manat, 34 qəpik) manat məbləğləri ilə qalib gəlmiş təşkilatlar ilə müvafiq satınalma müqavilələri imzalanmışdır.

***Tender komissiyası***

# "Bakı Metropoliteni" QSC kotirovka sorğusu elan edir

**"Bakı Metropoliteni" QSC-nin "Bakmil" stansiyasında Platforma səviyyəsində günlüyün kəllə divarının kompozit material ilə üzlənməsi işlərinin satın alınması.**

Kotirovka sorğusunda iştirak etmək üçün sənədlər 15.01.2019-cu il saat 17:00 tarixədək qəbul olunur. Təkliflər 16.01.2019-cu il tarixdə saat 15:30-da açılacaqdır.

**Ünvan: Bakı ş., M.Rəfili, 16, tel.: (012) 490-00-91**
**Əlaqələndirici şəxs: Əlixan Osmanov**

***Tender komissiyası***

# "Bakı Metropoliteni" QSC Depo ərazisindəki Birləşmiş Emalatxanalar və Eskalatorların təmir sexlərinin havalandırma sisteminin quraşdırılması işlərinin satın alınması üzrə *açıq tender elan edir*

**Tender 1 (bir) LOT üzrə keçirilir:**

Tender iştirakçılarına təklif edilir ki, öz tender təkliflərini möhürlənmiş, imzalanmış şəkildə ikiqat zərflərdə yazılı surətdə təqdim etsinlər.

Müqaviləni yerinə yetirmək üçün tender iştirakçıları lazımi maliyyə və texniki imkanlarına malik olmalıdırlar.

Tenderdə iştirak etmək istəyənlər LOT üzrə aşağıdakı məbləğdə iştirak haqqını göstərilən hesaba köçürdükdən sonra Azərbaycan dilində tərtib olunmuş əsas şərtlər toplusunu Bakı şəhəri, M.Rəfili küçəsi, 16-dan (əlaqələndirici şəxs: Əlixan Osmanov, telefon: 490-00-91) ala bilərlər.

**LOT-1. Depo ərazisindəki Birləşmiş Emalatxanalar və Eskalatorların təmir sexlərinin havalandırma sisteminin quraşdırılması işlərinin satın alınması**

**İştirak haqqı - 200 manat**

Hesabın adı: BAKI METROPOLITENI QSC
Hesab nömrəsi (IBAN):
AZ98AZRT38050019440010268002 AZN
VÖEN: 1402871431
Bankın adı: AZƏR-TÜRK BANK ASC (Mərkəz Filialı)
Kod: 501361
VÖEN: 9900006111
Müxbir hesabı: AZ02NABZ01350100000000022944
SWIFT BIK: AZRTAZ22

**İştirak haqqı heç bir halda geri qaytarılmır.**

İddiaçılar tenderdə iştirak etmək üçün aşağıdakı sənədləri təqdim etməlidirlər:

- *tenderdə iştirak etmək üçün yazılı müraciət;*
- *tenderdə iştirak haqqının ödənilməsi barədə bank sənədi;*
- *tender təklifi (zərflərin açıldığı tarixdən sonra ən azı 40 bank günü qüvvədə olmalıdır);*
- *tender təklifi dəyərinin 1 faizi həcmində bank təminatı (zərflərin açıldığı tarixdən sonra ən azı 70 bank günü qüvvədə olmalıdır);*
- *Azərbaycan Respublikasında vergilərə və digər icbari ödənişlərə dair yerinə yetirilməsi vaxtı keçmiş öhdəliklərin olmaması haqqında müvafiq vergi orqanından arayış;*
- *iddiaçının son bir ildəki fəaliyyəti haqqında vergi orqanları tərəfindən təsdiq olunmuş maliyyə hesabatının surəti;*
- *iddiaçının son bir ildəki maliyyə vəziyyəti haqqında bank arayışı;*
- *iddiaçının tam adı, hüquqi statusu, nizamnaməsi, qeydiyyatdan keçdiyi ölkə və rekvizitləri.*

Sənədlər Azərbaycan dilində, 2 nüsxədə (əsli və surəti) tərtib olunmalıdır (xarici dildə olan tender təklifləri Azərbaycan dilinə tərcümə olunmalıdır).

Tender proseduru "Dövlət satınalmaları haqqında" qanuna uyğun keçiriləcəkdir.

İddiaçılar tenderdə iştirak etmək üçün yuxarıda göstərilən sənədləri (tender təklifi və bank təminatı istisna olmaqla) **12 fevral 2019-cu il saat 18:00-a** qədər, tender təklifi və bank təminatını isə möhürlənmiş ikiqat zərfdə **20 fevral 2019-cu il saat 17:00-a** qədər, Bakı şəhəri, M.Rəfili küçəsi, 16 ünvanına "İcraya nəzarət, kargüzarlıq və təsərrüfat işləri" şöbəsinə təqdim etməlidirlər.

Göstərilən vaxtdan gec təqdim olunmuş zərflər açılmadan geri qaytarılacaqdır.

İddiaçıların təklifləri **21 fevral 2019-cu il saat 15:00-da** yuxarıda göstərilən ünvanda açılacaqdır.

İddiaçıların səlahiyyətli nümayəndələri iştirak edə bilərlər.

***Tender komissiyası***

«AZƏRBAYCAN» qəzetinin reklam xidməti 539-49-20

2010-cu ildə Nizami rayon 251 nömrəli tam orta məktəb tərəfindən Raman Səfər oğlu Abdullayevin adına verilmiş 11-ci sinif attestatı itdiyi üçün etibarsız sayılır.

## ALLAH RƏHMƏT ELƏSİN!

Milli Məclisin deputatı, AMEA A.A.Bakıxanov adına Tarix İnstitutunun direktoru Yaqub Mahmudov və institutun kollektivi iş yoldaşları **HAKİM QƏMBƏROVUN** vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

Ombudsman Elmira Süleymanova və aparatın əməkdaşları iş yoldaşları Lamiyə Zeynalovaya qardaşı **ELÇİN ZEYNALOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

"Mətanət A" şirkətinin rəhbəri Elxan Bəşirov və şirkətin kollektivi Milli Məclisin deputatı Ağalar Vəliyevə əzizi **ZAHİR ƏLİZADƏNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Texniki Universitetinin rektorluğu və Həmkarlar İttifaqı Komitəsi Nəqliyyat fakültəsinin dekanı, professor Fazil Həsənova qardaşı **NƏRİMAN HƏSƏNOVUN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Azərbaycan Respublikasının Mənzil İnşaatı Dövlət Agentliyinin rəhbərliyi və kollektivi Milli Məclisin İqtisadi siyasət, sənaye və sahibkarlıq komitəsinin sədr müavini Ağalar Vəliyevə əzizi **ZAHİR ƏLİZADƏNİN** vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
Bəxtiyar SADIQOV

Ünvan



AZ 1073, Bakı şəhəri, Mətbuat prospekti, 529-cu məhəllə, IV mərtəbə
e-mail:
secretary@azerbaijan-news.az
az_reklam@azeronline.com
azerbaijan-news@mail.ru
www.azerbaijan-news.az

Telefonlar

Qəbul otağı - 539-68-71,
Baş redaktor müavinləri - 538-86-86, 434-63-30, 538-97-96,
Məsul katib - 539-43-23,
Məsul katib müavinləri - 539-44-91,
Parlament və siyasət şöbəsi - 539-72-39, 539-84-41, 539-21-00,
İqtisadiyyat şöbəsi - 538-42-32, 538-35-55,
Beynəlxalq həyat, idman və informasiya şöbəsi - 432-37-68,
Humanitar siyasət şöbəsi - 538-56-60, 539-63-82
Reklam şöbəsi - 539-49-20, 538-31-11,
Kompüter mərkəzi - 538-20-87,
Fotoillüstrasiya şöbəsi - 538-84-73,
Mühasibat - 539-59-33,
Faks - (+994 12) 5398441

Qeydiyyat nömrəsi 1

"Azərbaycan" qəzetinin kompüter mərkəzində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında çap edilmişdir

Rəsmi sənəd və çıxışlarda söylənilənlərlə bərabər, dərc üçün göndərilən digər yazılardakı fikirlər də Azərbaycan dövlətinin mənafeyinə uyğun gəlməlidir

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Gündəlik qəzet

Tiraj 7731
Sifariş 67
Qiyməti 40 qəpik